# Çıxış 1

### İsrail övladlarının Misirdəki vəziyyəti

1Yaqubla birlikdə ailələri ilə Misirə gələn İsrail övladlarının adları bunlar idi: 2Ruven,
Şimeon, Levi, Yəhuda, 3İssakar, Zevulun, Binyamin, 4Dan, Naftali, Qad, Aşer,
5Yaqubun nəslindən törənən yetmiş nəfər idi. Yaqubun oğlu Yusif artıq Misirdə idi.
6Vaxt yetişdi, Yusif, qardaşları və o nəslin hamısı öldü. 7 Amma İsrail övladları çoxalıb
böyüdülər, sayları artdı və onlar qüvvətləndi; ölkə onlarla doldu. 8 Misirdə Yusifi
tanımayan yeni bir padşah taxta çıxdı. 9O, xalqına dedi: «Baxın İsrail övladları sayca
bizdən çox və daha qüvvətlidir. 10 Gəlin onlarla ağılla rəftar edək, yoxsa çoxalar və
müharibə vaxtı düşmənlərimizlə birləşib bizə qarşı vuruşar, sonra isə ölkəni tərk edərlər».
11Misirlilər İsrail övladlarına əziyyət vermək üçün onların üzərinə zülmkar iş
nəzarətçiləri qoydular. İsrail övladları firon üçün Pitom və Ramses adlanan şəhərlər
tikdilər. Orada anbarlar yerləşdirdilər. 12Ancaq İsrail övladlarına əziyyət vermələrinə
baxmayaraq, onlar çoxalıb artırdı. Onda Misirlilər İsrail övladlarından qorxub, 13onları
sıxıntılı əsarətdə saxladılar. 14Misirlilər İsrail övladlarını ağır işlərlə – palçıq
tapdalamaqla, kərpic kəsməklə və hər cür tarla işləri ilə amansızcasına işlədib onların
həyatını acı etdilər. 15Misir padşahı birinin adı Şifra, o birinin adı Pua olan İbrani
mamaçalarına dedi: 16«İbrani qadınlarını doğuzduranda baxın: əgər uşaq oğlan olarsa,
onu öldürün, yox, əgər qız olsa, qoy yaşasın». 17Ancaq mamaçalar Allahdan qorxurdular
və buna görə Misir padşahının onlara əmr etdiyi kimi etmədilər və oğlan uşaqlarını sağ
buraxdılar. 18Misir padşahı mamaçaları çağırtdırıb onlara dedi: «Niyə belə etdiniz? Niyə
oğlan uşaqlarını sağ buraxdınız?» 19Mamaçalar firona dedilər: «Çünki İbrani qadınları
Misirli qadınlar kimi deyil, onlar daha sağlamdırlar və mamaçalar onların yanına
gəlməzdən əvvəl doğurlar». 20Buna görə Allahın xalqı çoxalıb artdı. Allah mamaçalara
da xeyirxahlıq göstərdi. 21Ondan qorxduqlarına görə bu qadınlara da ailə nəsib etdi. 22
Firon bütün xalqına əmr edib dedi: «İbranilərdən hər doğulan oğlan uşağını Nil çayına
atın! Hər qız uşağını isə sağ qoyun».

# Çıxış 2

### Musanın doğulması

1O zaman Levi qəbiləsindən bir kişi öz nəslindən bir arvad aldı. 2 O hamilə olub oğul
doğdu və uşağın gözəl olduğunu görüb üç ay gizlətdi. 3Bundan artıq onu gizlədə
bilməyərək qamışdan bir səbət götürüb ona qır və qatran sürtdü, körpəni səbətin içinə
salıb Nil çayının kənarındakı qamışlığın arasına qoydu. 4Körpənin bacısı isə onun başına
nə gələcəyini bilmək üçün uzaqda durub baxırdı. 5Fironun qızı çimmək üçün çaya girdi.
Onun qarabaşları isə çayın kənarında gəzişirdilər. Fironun qızı qarğıların arasında səbəti
görüb onu gətirmək üçün kənizini göndərdi. 6Sonra səbəti açıb bir oğlan gördü. Körpə
ağlayırdı. Fironun qızı ona rəhmi gəldiyindən dedi: «Bu, İbrani oğlanlarındandır».
7Körpənin bacısı fironun qızına dedi: «Bəlkə gedib sənin üçün İbrani qadınlarından bir
dayə çağırım ki, körpəni əmizdirsin?» 8Fironun qızı ona «get» dedi. Qız gedib körpənin
anasını çağırdı. 9Fironun qızı ona dedi: «Bu körpəni götürüb mənim üçün əmizdir, sənə

bunun haqqını verərəm». Qadın körpəni götürüb əmizdirdi. 10 Uşaq böyüdü və qadın onu
firon qızının yanına apardı. Fironun qızı uşağı oğulluğa götürdü. O, uşağın adını Musa
qoyub dedi: «Oğlanı sudan çıxartdığım üçün ona bu adı qoydum».

**Musa Misirlini öldürür**

11 Çox illər keçdi, Musa böyüdü. Bir dəfə o öz xalqının yanına getdi və onların ağır
zəhmətini gördü. Bir Misirlinin onun xalqından olan İbranini döydüyünü gördü. 12 Musa
ətrafına baxıb heç kəsin olmadığını görəndə Misirlini öldürüb qumda gizlətdi. 13 Ertəsi
gün o yenə gedəndə gördü ki, iki İbrani bir-biri ilə dalaşır. Musa haqsız olana dedi:
«Yoldaşını niyə vurursan?» 14 O adam dedi: «Səni bizim üstümüzə kim başçı və hakim
qoyub? Yoxsa Misirlini öldürdüyün kimi məni də öldürmək fikrindəsən?» Musa qorxaraq
ürəyində dedi: «Deyəsən, bu iş barədə bilirlər». 15 Firon bu işdən xəbərdar olanda
Musanı öldürtdürmək istədi. Ancaq Musa fironun əlindən qaçıb Midyan torpağına
çataraq bir quyunun yanında oturdu.

**Musa Midyanda yaşayır**

16 Midyan kahininin yeddi qızı var idi. Onlar gəlib quyudan su çəkərək atalarının qoyun-
keçilərinə su vermək üçün teknələri doldurdular. 17 O vaxt çobanlar gəlib onları qovdular;
onda Musa qalxıb qızlara kömək etdi və qoyun-keçilərinə su verdi. 18 Qızlar ataları
Reuelin yanına gələndə o dedi: «Necə oldu ki, bu gün tez gəldiniz?» 19 Onlar dedilər:
«Bir Misirli bizi çobanların əlindən qurtardı və bizim üçün quyudan su çəkib qoyun-
keçiyə su verdi». 20 O, qızlarına dedi: «O adam haradadır? Onu niyə buraxdınız? Çağırın,
gəlib çörək yesin». 21 Musa o adamın evində qalmağa razı oldu. O da qızı Sipporanı
Musaya arvad olaraq verdi. 22 Sippora bir oğlan doğdu. Musa onun adını Gerşom qoyub
dedi: «Mən yad bir ölkədə qərib oldum».

**Allah İsraillilərin fəryadını eşidir**

23 Xeyli vaxt keçəndən sonra Misir padşahı öldü. İsrail övladları ağır zəhmət çəkdikləri
üçün fəryad edib inlədilər. Ağır zəhmətlərinə görə etdikləri nalələri Allaha çatdı. 24 Allah
onların iniltisini eşitdi; İbrahimlə, İshaqla və Yaqubla olan əhdini xatırladı. 25 Allah İsrail
övladlarının qul olduqlarını gördü və onlara nəzər saldı.

# Çıxış 3

**Rəbb Musanı çağırır**

1 Musa qayınatası Midyan kahini Yetronun sürüsünü otarırdı. Bir dəfə o, sürünü səhranın
o biri tərəfinə aparıb Allahın dağı Xorevə gəldi. 2 Birdən Rəbbin mələyi ona bir kol
arasından od-alov içərisində göründü; od içində kolun sönmədən yanmasını görüb 3 Musa
öz-özünə dedi: «Gedim, bu qəribə mənzərəyə baxım, görüm nə üçün bu kol yanıb
qurtarmır». 4 Rəbb Musanın baxmağa gəldiyini görəndə Allah kolun ortasından onu
çağırıb dedi: «Musa, Musa!» O da «mən buradayam» dedi. 5 Allah dedi: «Buraya
yaxınlaşma. Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır». 6

Sonra dedi: «Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun
Allahıyam». Musa üzünü örtdü, çünki Allaha baxmağa qorxurdu. 7Rəbb dedi:
«Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən
etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım. 8Mən ona görə gəldim ki, onları
Misirlilərin əlindən qurtarıb bu ölkədən çıxarım və geniş, nemətli bir diyara, süd və bal
axan torpağa – Kənanlıların, Xetlilərin, Emorluların, Perizlilərin, Xivlilərin və
Yevusluların ölkəsinə aparım. 9İndi isə İsrail övladlarının fəryadı Mənə çatdı,
Misirlilərin onlara etdikləri zülmü görürəm. 10Buna görə də get. Səni fironun yanına
göndərirəm ki, xalqım İsrail övladlarını Misirdən çıxarasan». 11Musa Allaha dedi: «Axı
mən kiməm ki, fironun yanına gedib İsrail övladlarını Misirdən çıxarım?» 12Allah dedi:
«Mən səninləyəm. Mənim səni göndərdiyimə əlamət bu olacaq: sən xalqı Misirdən
çıxaranda bu dağda Mənə ibadət edəcəksiniz». 13 Musa Allaha dedi: «İsrail övladlarının
yanına gedib “məni sizin yanınıza atalarınızın Allahı göndərib” deyəndə onlar məndən
soruşa bilərlər: “Bəs Onun adı nədir?” Onda mən nə deyim?» 14 Allah Musaya dedi:
«Var Olan Mənəm». Sonra dedi: «İsrail övladlarına belə söylə: “‹Mənəm› deyən sizin
yanınıza məni göndərdi”». 15 O, Musaya belə dedi: «İsrail övladlarına söylə:
“Atalarınızın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı Rəbb məni sizin
yanınıza göndərdi”. Adım əbədi olaraq budur. Qoy Məni nəsildən-nəslə belə xatırlasınlar.
16Get, İsrail ağsaqqallarını topla və onlara belə söylə: “Atalarınızın Allahı, İbrahimin,
İshaqın və Yaqubun Allahı Rəbb mənə görünərək bunları dedi: ‹Siz və Misirdə başınıza
gətirilənlərin hamısı nəzərimdədir. 17Söz verdim ki, sizi Misirdəki əziyyətdən qurtarıb
Kənanlıların, Xetlilərin, Emorluların, Perizlilərin, Xivlilərin və Yevusluların ölkəsinə –
süd və bal axan torpağa aparacağam›”. 18İsrail ağsaqqalları sənin sözünə qulaq asacaqlar.
Sən onlarla birgə Misir padşahının yanına gedib de: “İbranilərin Allahı Rəbb bizə
göründü. İndi bizə izin ver ki, çöldə birlikdə üç günlük yol gedək və orada Allahımız
Rəbbə qurban gətirək”. 19Amma bilirəm ki, Misir padşahı qüdrətli əl vasitəsilə məcbur
olmasa, sizin getməyinizə izin verməyəcək. 20Mən də əlimi uzadıb orada hər cür
möcüzələr edərək Misiri vuracağam; bundan sonra Misir padşahı sizi buraxacaq. 21 Bu
xalqa qarşı Misirlilərin gözündə lütf qazandıracağam ki, yola düşdüyünüz zaman əliboş
getməyəsiniz. 22Hər qadın öz qonşusundan, yaxınlıqda qalan qadından qızıl-gümüş əşya
və paltar istəsin. Bunlarla oğul və qızlarınızı bəzəyəcəksiniz, beləcə Misirliləri
soyacaqsınız».

# Çıxış 4

### Allahın Musaya verdiyi əlamətlər

1Musa belə cavab verdi: «Bəlkə onlar mənə inanmayaraq sözümə qulaq asmayıb “Rəbb
sənə görünməyib” deyəcəklər?» 2Rəbb Musaya dedi: «Sənin əlindəki nədir?» O dedi:
«Əsa». 3Rəbb dedi: «Onu yerə at». Musa onu yerə atdı və əsa ilan oldu. Musa onun
qabağından qaçdı. 4Rəbb Musaya dedi: «Əlini uzadıb onun quyruğundan tut». Musa əlini
uzadıb tutanda o yenə əlində əsa oldu. 5Sonra Rəbb dedi: «Bu əlamət ona görədir ki,
İsraillilər atalarının Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı Rəbbin
sənə göründüyünə inansınlar». 6Rəbb yenə dedi: «İndi əlini qoynuna qoy». Musa əlini
qoynuna qoydu. Onu qoynundan çıxaranda, əli cüzama tutulub qar kimi ağappaq oldu.
7Sonra Rəbb dedi: «Əlini yenə qoynuna qoy». Musa yenə əlini qoynuna qoydu. Əlini

qoynundan götürəndə əli yenə də bədəni kimi oldu. [8]Rəbb davam etdi: «Əgər sənə
inanmasalar və əvvəlki əlaməti qəbul etməsələr, sonrakı əlaməti qəbul edəcəklər. [9]Bu iki
əlamətə də inanmayıb sözünə qulaq asmasalar, Nil çayının suyundan götürüb quruya tök.
Çaydan götürdüyün su quruda qana çevriləcək». [10]Musa Rəbbə dedi: «Ya Xudavənd,
mən nə keçmişdə, nə də qulunla danışdığın vaxt natiq olmamışam, çünki dili ağır, səlis
danışmayan bir adamam». [11]Rəbb ona dedi: «Ağzı insana kim verib? İnsanı lal, kar, kor
yaxud gözlü edən kimdir? Bunu edən Mən Rəbb deyiləmmi? [12]İndi get, Mən ağzınla
danışacağam və deyəcəyin sözü sənə öyrədəcəyəm». [13]Musa dedi: «Ya Xudavənd,
yalvarıram, başqa adamı göndər». [14]Rəbb Musaya qəzəblənib dedi: «Qardaşın Levili
Harun yoxdurmu? Bilirəm ki, onun yaxşı nitqi var. İndi o səni qarşılamağa gəlir. Səni
görəndə ürəkdən sevinəcək. [15]Qardaşınla danış, nə demək lazımdırsa, ona başa sal. Mən
isə sənin və onun ağzı ilə danışacağam. Sizə nə etməyi öyrədəcəyəm. [16]Sənin əvəzinə
xalqla Harun danışacaq. O sənin üçün ağız kimi, sən isə onun üçün Allah kimi olacaqsan.
[17]Bu əsanı əlinə götür; onunla əlamətlər göstərəcəksən».

**Musanın Misirə qayıtması**

[18]Musa oradan getdi və qayınatası Yetronun yanına qayıdıb dedi: «İzin ver qayıdıb
Misirdəki xalqımın yanına gedim, görüm onlar sağ-salamatdırlar ya yox?» Yetro Musaya
dedi: «Salamat get». [19]Midyan torpağında Rəbb Musaya dedi: «Misirə qayıt, çünki sənin
canını almaq istəyən adamların hamısı ölüb». [20]Musa arvadını və oğullarını götürüb
eşşəyə mindirdi və Allahın buyurduğu əsanı əlinə götürüb Misirə yollandı. [21]Rəbb
Musaya dedi: «Misirə qayıdanda sənə buyurduğum bütün möcüzələrə fikir ver və fironun
hüzurunda onları göstər; ancaq Mən onun ürəyini inadkarlaşdıracağam və o, xalqı
buraxmayacaq. [22]Firona söyləyəcəksən: “Rəbb belə deyir: İsrail Mənim oğlum, Mənim
ilkimdir. [23] Sənə dedim ki, Mənə ibadət etmək üçün oğlumu burax! Sən isə onu
buraxmaqdan boyun qaçırdın. Onda Mən sənin ilk oğlunu öldürəcəyəm”». [24]Yolda
gecələyərkən Rəbb Musaya rast gəldi və onu öldürmək istədi. [25]O zaman Sippora
çaxmaq daşı götürüb oğlunu sünnət etdi və sünnət ətini Musanın ayaqlarına toxundurub
dedi: «Sən mənim qan adaxlımsan». [26]Beləliklə, Rəbb ondan əl çəkdi. Sippora Musaya
sünnətə görə «qan adaxlımsan» demişdi.

**Musa və Harun İsrail ağsaqqallarının yanında**

[27]Rəbb Haruna dedi: «Musanı qarşılamaq üçün səhraya get». Harun gedib Allahın
dağında qardaşına rast gəldi və onunla öpüşdü. [28]Musa Haruna Rəbb onu necə
göndərdiyini bildirdi. Rəbbin bütün sözlərini və ona göstərmək üçün əmr etdiyi bütün
əlamətləri barədə Haruna danışdı. [29]Musa və Harun gedib İsrail övladlarının bütün
ağsaqqallarını topladılar. [30]Harun Rəbbin Musaya söylədiyi sözlərin hamısını onlara dedi
və xalqın qarşısında əlamətlər göstərdi. [31]Xalq bunlara inandı. Onlar Rəbbin İsrail
övladlarının əziyyətini görüb nəzər saldığını eşidəndə əyilib Ona səcdə etdilər.

# Çıxış 5

### Musa və Harun fironun sarayında

[1]Musa və Harun gəlib firona dedilər: «İsrailin Allahı Rəbb belə deyir: “Xalqımı burax ki,
səhrada Mənim üçün bayram keçirsinlər!”» [2]Firon dedi: «Rəbb kimdir ki, Onun səsinə
qulaq asıb İsrail övladlarını buraxım? Rəbbi tanımıram, İsrail övladlarını da
buraxmıram». [3]Onlar dedilər: «İbranilərin Allahı bizə göründü. Qoy səhrada üç gün yol
gedək və Allahımız Rəbbə qurban gətirək ki, bizə vəba göndərməsin yaxud da qılıncla
məhv etməsin». [4]Misir padşahı onlara dedi: «Ey Musa və Harun, nə üçün xalqı işindən
ayırırsınız? Gedin, işinizi görün». [5]Sonra firon dedi: «Artıq ölkədə xalq çoxdur, siz isə
onları işindən ayırıb istirahət verirsiniz».

### Fironun İsrail xalqına qarşı qəddarlığı

[6]Həmin gün firon xalqın nəzarətçilərinə və gözətçilərinə əmr edib dedi: [7]«İndiyə kimi
etdiyinizdən fərqli olaraq, bir daha xalqa kərpic düzəltmək üçün saman verməyin. Qoy
özləri gedib saman yığsınlar. [8]Ancaq indiyə qədər onların üzərlərinə qoyduğunuz
gündəlik kərpic sayını azaltmayın. Çünki onlar tənbəldirlər və buna görə də “gedək
Allahımıza qurban gətirək” deyib fəryad edirlər. [9]Bu adamlara daha ağır iş verilsin ki,
çox çalışsınlar və yalanlara fikir verməsinlər». [10]Xalqın nəzarətçi və gözətçiləri
adamların yanına gəlib onlara dedilər: «Firon belə deyir: “Mən sizə saman
verməyəcəyəm. [11]Gedin, özünüz haradan istəyirsiniz, saman götürün, ancaq işiniz
azalmayacaq”». [12]Xalq bütün Misir torpağına səpələnib saman əvəzinə küləş yığmağa
başladı. [13]Nəzarətçilər onları məcbur edərək deyirdilər: «Sizə saman verilən vaxt
gördüyünüz gündəlik işi yerinə yetirin». [14]Firon nəzarətçiləri İsrail övladlarının üzərinə
qoyduqları İsrailli gözətçiləri döyüb dedilər: «Niyə dünən və bu gün indiyə qədər olan
gündəlik kərpic sayını yerinə yetirməmisiniz?» [15]İsrail övladlarından olan gözətçilər
fironun yanına gəlib ona fəryad edərək dedilər: «Qullarınla niyə belə rəftar edirsən?
[16]Qullarına saman vermirlər, ancaq bizə “kərpiclər düzəldin” deyirlər. Budur, qulların
döyülür. Bu sənin xalqının günahıdır». [17]O isə dedi: «Tənbəlsiniz, tənbəl, buna görə də
“gedək, Rəbbə qurban gətirək” deyirsiniz. [18]İndi gedin işləyin. Sizə saman verilməyəcək,
ancaq gündəlik kərpic sayını düzəltməlisiniz». [19]İsrailli gözətçilər «sizin üçün müəyyən
olunmuş gündəlik kərpic sayı azalmayacaq» sözlərini eşidəndə pis vəziyyətə düşdüklərini
anladılar. [20]İsrailli gözətçilər fironun yanından çıxanda yolda durub onları gözləyən
Musa və Harunla rastlaşıb [21]dedilər: «Qoy Rəbb sizin nə etdiyinizi görsün və sizi
məhkum etsin! Siz bizi fironla əyanlarının gözündə iyrənc etdiniz və bizi öldürmək üçün
əllərinə qılınc verdiniz». [22]Musa Rəbbə müraciət edib dedi: «Ey Xudavənd, nə üçün
xalqı belə bəlaya saldın? Məni niyə göndərdin? [23]Sənin adınla fironla danışmaq üçün
gələndən bəri o bu xalqı bəlaya salır, Sən isə onları heç azad etmirsən».

# Çıxış 6

[1]Rəbb Musaya dedi: «İndi Mənim firona nə edəcəyimi görəcəksən: qüdrətli əllə məcbur
olanda İsrail xalqını buraxacaq, qüdrətli əllə məcbur olub onları ölkəsindən qovacaq».

**Allahın Musaya vədləri**

2 Sonra Allah Musaya dedi: «Mən Rəbbəm. 3Mən İbrahimə, İshaqa və Yaquba Külli-
İxtiyar Allah adı ilə göründüm, ancaq Rəbb adı ilə Özümü onlara tanıtdırmadım.
4Onlarla da Mən əhd bağladım ki, qərib yaşadıqları ölkəni – Kənan torpağını onlara
verim. 5İndi də Misirlilərin əsarətdə saxladığı İsrail övladlarının iniltisini eşidib Öz
əhdimi xatırladım. 6Buna görə də İsrail övladlarına söylə: “Mən Rəbbəm. Sizi
Misirlilərin zülmündən qurtaracağam, onların əsarətindən çıxaracağam və qolumu uzadıb
böyük cəzalar bahasına sizi satın alacağam. 7Sizi Özümə xalq edəcəyəm və sizin
Allahınız olacağam. Onda biləcəksiniz ki, sizi Misirlilərin zülmündən qurtaran Allahınız
Rəbb Mənəm. 8Mən İbrahimə, İshaqa və Yaquba and içərək verəcəyimi vəd etdiyim
torpağa sizi aparıb, oranı sizə mülk olaraq verəcəyəm. Mən Rəbbəm”». 9Musa İsrail
övladlarına elə söylədi. Ancaq onlar ruhdan düşdüklərinə və ağır əsarət çəkdiklərinə görə
Musaya qulaq asmadılar. 10Rəbb Musaya dedi: 11«Misir padşahı fironun yanına gedib
söylə ki, İsrail övladlarını ölkəsindən buraxsın!» 12Musa Rəbbin önündə dedi: «İsrail
övladları mənə qulaq asmadı, firon mənə necə qulaq asacaq? Mən yaxşı danışa
bilmirəm». 13Rəbb Musa və Harunla danışıb onlara İsrail övladları və Misir padşahı firon
üçün əmrlər verdi ki, İsrail övladlarını Misir torpağından çıxartsınlar.

**Musanın və Harunun nəsil şəcərəsi**

14İsrail övladlarının nəsil başçıları bunlardır: İsrailin ilk oğlu Ruvenin oğulları: Xanok,
Pallu, Xesron və Karmi; Ruvenin nəsli bunlardan ibarətdir. 15Şimeonun oğulları:
Yemuel, Yamin, Ohad, Yakin, Sohar və Kənanlı bir qadının oğlu Şaul; Şimeonun nəsli
bunlardan ibarətdir. 16 Nəsillərinə görə Levinin oğulları bunlardır: Gerşon, Qohat və
Merari. Levi yüz otuz yeddi il ömür sürdü. 17Nəsillərinə görə Gerşonun oğulları: Livni
və Şimey. 18Qohatın oğulları: Amram, İshar, Xevron və Uzziel; Qohat yüz otuz üç il
ömür sürdü. 19Merarinin oğulları: Maxli və Muşi; nəsillərinə görə Levinin ailəsi
bunlardan ibarətdir. 20Amram bibisi Yokevedi arvad olaraq aldı; arvadı ona Harunu və
Musanı doğdu. Amram yüz otuz yeddi il ömür sürdü. 21İsharın oğulları: Qorah, Nefeq və
Zikri. 22Uzzielin oğulları: Mişael, Elsafan və Sitri. 23Harun Naxşonun bacısı
Amminadavın qızı Elişevanı arvad aldı; arvadı ona Nadavı, Avihunu, Eleazarı və İtamarı
doğdu. 24Qorahın oğulları: Assir, Elqana və Aviasaf; Qorahın ailəsi bunlardan ibarətdir.
25Harunun oğlu Eleazar Putielin qızlarından birini arvad aldı; arvadı ona Pinxası doğdu.
Ailələrinə görə Levililərin nəsil başçıları bunlardır. 26Adları çəkilən Harun və Musa o
adamlardır ki, Rəbb onlara «İsrail övladlarını dəstələrlə Misir torpağından çıxarın»
demişdi. 27Onlar həmin Musa və Harun idi ki, İsrail övladlarını Misir torpağından
çıxarmaq üçün Misir padşahı fironla danışmışdılar.

**Allahın Musaya və Haruna buyurduğu əmrlər**

28Misir torpağında Rəbbin Musa ilə danışdığı gün 29Rəbb Musaya dedi: «Mən Rəbbəm!
Sənə dediyim bütün sözləri Misir padşahı firona söylə». 30Musa Rəbbin önündə dedi:
«Mən yaxşı danışa bilmirəm, firon mənə necə qulaq asacaq?»

# Çıxış 7

1Rəbb Musaya dedi: «Səni firon üçün Allah kimi qoydum, qardaşın Harun isə sənin
peyğəmbərin olacaq. 2Mənim sənə verdiyim əmri qardaşın Haruna söylə. Qoy o da
firona söyləsin ki, İsrail övladlarını ölkəsindən buraxsın! 3 Lakin Mən fironun ürəyini
inadkar edəcəyəm ki, Misir torpağında göstərəcəyim çoxlu əlamətlər və möcüzələrə
baxmayaraq, 4firon sizə qulaq asmasın. Onda Mən əlimi Misir torpağına uzadıb böyük
cəzalar göndərərək ordularımı – xalqım İsrail övladlarını onların arasından dəstələrlə
çıxaracağam. 5Əlimi Misir torpağına uzadaraq İsrail övladlarını onların arasından
çıxardığım vaxt Misirlilər biləcəklər ki, Rəbb Mənəm!» 6Rəbb Musa və Haruna necə əmr
etmişdisə, onlar da elə etdilər. 7Fironla danışdıqları vaxt Musanın səksən, Harunun isə
səksən üç yaşı var idi.

**Harunun əsası**

8Rəbb Musaya və Haruna dedi: 9«Firon sizə "məni inandırmaq üçün bir möcüzə
göstərin" deyəndə Musa Haruna desin: "Öz əsanı götürüb fironun önündə yerə at ki, ilana
dönsün"». 10Musa və Harun fironun yanına gəlib Rəbb necə əmr etmişdisə, elə də etdilər.
Harun öz əsasını fironun və onun əyanlarının qarşısında yerə atdı və əsa ilana döndü. 11
Firon isə müdrik adamları və cadugərləri çağırdı. Misir sehrbazları da öz sehrləri ilə belə
etdilər. 12Hər biri öz əsasını yerə atıb ilana döndərdi, ancaq Harunun əsası onların
əsalarını uddu. 13Lakin Rəbbin söylədiyi kimi fironun ürəyi inadkar oldu və onlara qulaq
asmadı.

**Birinci cəza: suyun qana dönməsi**

14Rəbb Musaya dedi: «Fironun inadkar ürəyi var, xalqı buraxmaqdan boyun qaçırır.
15Sən sabah səhər firon suya tərəf gedəndə qarşısına çıx. İlana dönən əsanı əlinə götürüb,
onu Nil çayının sahilində gözlə. 16Sonra firona de: "İbranilərin Allahı Rəbb məni yanına
göndərdi ki, sənə deyim: ‹Xalqımı burax ki, səhrada Mənə ibadət etsin!› Ancaq sən
indiyə qədər qulaq asmadın, 17 buna görə də Rəbb belə deyir: ‹Bundan biləcəksən ki,
Rəbb Mənəm. Bax mən əlimdəki əsanı Nil çayının suyuna vuracağam, onda su qana
dönəcək. 18Çayda olan balıqlar öləcək və çay iylənəcək, Misirlilər çaydan su içməyə
iyrənəcəklər›"». 19Rəbb Musaya dedi: «Haruna belə söylə: "Əsanı götür və əlini bütün
Misir çayları, arxları, gölləri, hovuzları üzərinə uzat". Onlar qana dönsün, bundan başqa
bütün Misir torpağında həm taxta, həm də daş qablarda qan olacaq». 20Rəbb Musa və
Haruna necə əmr etmişdisə, onlar da elə etdilər: fironun və onun əyanlarının qarşısında
Harun əsasını qaldırdı və çaydakı suya vurdu. Nil çayındakı bütün su qana döndü;
21çaydakı balıqlar öldü və çay iyləndi. Misirlilər buradan su içə bilmədilər. Misir torpağı
qan içində idi. 22Amma Misir sehrbazları da öz sehrləri ilə belə etdilər. Rəbbin söylədiyi
kimi fironun ürəyi inadkar oldu və onlara qulaq asmadı. 23Firon qayıdıb öz sarayına
gəldi; bu işi də ürəyinə salmadı. 24Bütün Misirlilər Nil çayı sahilində yer qazmağa
başladılar ki, içməli su tapsınlar. Çünki çayın suyundan içə bilmirdilər. 25Rəbb çaya bəla
göndərəndən sonra yeddi gün keçdi.

# Çıxış 8

### İkinci cəza: qurbağalar

[1]Rəbb Musaya dedi: «Fironun yanına gedib ona söylə: "Rəbb belə deyir: xalqımı burax
ki, Mənə ibadət etsin! [2]Əgər sən xalqımı buraxmaq istəməsən, mən sənin bütün torpağını
qurbağalarla doldurub bəlaya salacağam. [3]Çay qurbağalarla qaynaşacaq və oradan çıxıb
sənin sarayında, yataq otağında, yatağının üstündə gəzəcəklər, əyanlarının, xalqının
evlərinə, təndirlərinə və xəmir tabaqlarına girəcəklər. [4]Sənin, xalqının və bütün
əyanlarının üstünə qurbağalar çıxacaq"». [5]Rəbb Musaya dedi: «Haruna belə söylə: əsanı
götür və əlini çayların, arxların və göllərin üzərinə uzat. Qoy Misir torpağı qurbağalarla
dolsun». [6]Harun əlini Misir suları üzərinə uzatdı və oradan qurbağalar çıxıb Misir
torpağını bürüdü. [7]Sehrbazlar da öz sehrləri ilə belə etdilər və Misir torpağına qurbağalar
yetirdilər. [8]Firon Musanı və Harunu çağırıb dedi: «Rəbbə yalvarın ki, məndən və
xalqımdan qurbağaları rədd etsin, onda Rəbbə qurban gətirmək üçün xalqı buraxaram».
[9]Musa firona dedi: «Söylə, nə vaxt sənin, əyanların və xalqın üçün dua edim ki,
qurbağalar səndən və evlərindən yox olsun və yalnız çayda qalsınlar?» [10]Firon dedi:
«Sabah». Musa dedi: «Sən dediyin kimi olacaq. Bundan biləcəksən ki, Allahımız Rəbbə
bənzəri yoxdur! [11]Qurbağalar səndən, evlərindən, əyanlarından və xalqından rədd olacaq,
yalnız çayda qalacaqlar». [12]Musa və Harun fironun yanından çıxdılar. Musa Rəbbin
fironun üzərinə göndərdiyi qurbağalara görə Ona yalvardı. [13]Rəbb də Musanın sözünə
əməl etdi. Evlərdə, həyətlərdə, tarlalarda olan qurbağalar öldü. [14]Onları qalaq-qalaq
yığdılar və torpaq iylənməyə başladı. [15]Ancaq firon vəziyyətin yüngülləşdiyini görəndə
Rəbbin söylədiyi kimi ürəyində inad etdi və onlara qulaq asmadı.

### Üçüncü cəza: mığmığalar

[16]Rəbb Musaya dedi: «Haruna belə söylə: "Əsanı uzadıb yerin tozuna vur ki, o bütün
Misir ölkəsində mığmığalara dönsün"». [17]Onlar belə də etdilər. Harun əlindəki əsanı
uzadıb yerin tozuna vurdu və insanların da, heyvanların da üstünə mığmığalar qondu.
Bütün Misir torpağında yerin tozu mığmığaya döndü. [18]Sehrbazlar da öz sehrləri ilə
mığmığalar gətirmək istədilər, ancaq bunu bacarmadılar. İnsanların da, heyvanların da
üstünə mığmığalar qondu. [19] Sehrbazlar firona dedilər: «Bunda Allahın əli var». Ancaq
Rəbbin söylədiyi kimi fironun ürəyi inadkar oldu və o qulaq asmadı.

### Dördüncü cəza: mozalanlar

[20]Rəbb Musaya dedi: «Səhər tezdən qalx. Firon suya tərəf gedəndə onun qarşısına gedib
belə söylə: "Rəbb belə deyir: xalqımı burax ki, Mənə ibadət etsin! [21]Əgər sən onları azad
etmək istəməsən, əyanların, xalqının üzərinə və evlərinin içinə mozalan yığınları
göndərəcəyəm. Misirlilərin evləri, yaşadıqları torpaq mozalanlarla dolacaq. [22]Ancaq o
gün xalqımın yaşadığı Qoşen torpağını ayıracağam ki, orada mozalanlar olmasın. Bundan
biləcəksən ki, bu ölkədə Rəbb Mənəm. [23]Sənin xalqınla Öz xalqım arasında fərq
qoyacağam. Bu əlamət sabah olacaq"». [24]Rəbb belə də etdi. Fironun sarayını, əyanlarının
evlərini, bütün Misir torpağını ağır mozalan yığını basdı. Mozalanların əlindən ölkə viran
oldu. [25]Firon Musanı və Harunu çağırıb dedi: «Gedin, bu ölkədə öz Allahınıza qurban

gətirin». [26]Ancaq Musa dedi: «Belə etmək olmaz, çünki bizim Allahımız Rəbbə qurban
kəsməyimiz Misirlilərdə ikrah hissi oyadacaq. Misirlilərin qabağında ikrah oyadan
qurbanlar kəssək, onlar bizi daşqalaq etməzlərmi? [27]Biz istəyirik ki, səhrada üç gün yol
gedək və Allahımız Rəbbin bizə əmr etdiyi kimi qurban gətirək». [28]Firon dedi: «Mən sizi
buraxıram ki, səhrada Allahınız Rəbbə qurban gətirəsiniz, ancaq çox uzağa getməyin.
Mənim üçün də yalvarın». [29]Musa dedi: «Mən sənin yanından gedirəm. Rəbbə dua
edəcəyəm ki, sabah fironu, əyanlarını və xalqını mozalanlardan qurtarsın. Ancaq qoy
firon xalqı Rəbbə qurban gətirməyə buraxmamaqla yenə də bizi aldatmasın». [30]Musa
fironun yanından gedib Rəbbə yalvardı. [31]Rəbb Musanın sözünə əməl etdi. Fironu,
əyanlarını və xalqını mozalanlardan qurtardı. Daha mozalan qalmadı. [32]Ancaq bu dəfə də
firon ürəyində inadkarlıq etdi və xalqı buraxmadı.

# Çıxış 9

### Beşinci cəza: qırğın

[1]Rəbb Musaya dedi: «Fironun yanına gedib ona söylə: "İbranilərin Allahı Rəbb belə
deyir: xalqımı burax ki, Mənə ibadət etsin! [2]Əgər sən onları buraxmaqdan boyun qaçırıb
saxlamağı davam etsən, [3]budur, Rəbb tarlanda olan heyvanların – at, eşşək, dəvə, mal-
qara və qoyun-keçinin üzərinə əlini qaldıracaq; çox ağır qırğın olacaq. [4]Ancaq Rəbb
İsrail övladlarının heyvanları ilə Misirlilərin heyvanları arasında fərq qoyacaq. İsrail
övladlarına məxsus olan heyvanlardan heç biri ölməyəcək"». [5]Rəbb vaxt təyin edib dedi:
«Rəbb bunu ölkədə sabah edəcək». [6]Məhz bunu da Rəbb səhəri gün etdi. Misirlilərin
bütün heyvanları öldü. Ancaq İsrail övladlarının heyvanlarından heç biri ölmədi. [7]Firon
vəziyyəti soruşdu və İsrail övladlarının heyvanlarından heç birinin ölmədiyi barədə xəbər
aldı. Ancaq fironun ürəyi inadkar oldu və o, xalqı buraxmadı.

### Altıncı cəza: irinli çibanlar

[8]Rəbb Musaya və Haruna dedi: «Kürədən əlinizə ovuc-ovuc qurum götürün. Qoy Musa
onu fironun gözü önündə göyə səpsin. [9]Bütün Misir torpağında toz qalxacaq, insanların
və heyvanların bədənində irinli çibanlar əmələ gətirəcək». [10] Onlar kürə qurumunu
götürüb fironun hüzurunda dayandılar. Musa onu göyə qədər səpdi, insanların və
heyvanların bədəninə irinli çibanlar çıxdı. [11]Sehrbazlar da bu cəzaya görə Musanın
qabağında dayana bilmədilər, çünki sehrbazların və bütün Misirlilərin bədənlərinə
çibanlar çıxmışdı. [12]Rəbbin Musaya söylədiyi kimi oldu: Rəbb fironun ürəyini inadkar
etdi və firon onlara qulaq asmadı.

### Yeddinci cəza: dolu

[13]Rəbb Musaya dedi: «Sabah səhər tezdən qalx və fironun qarşısına gedib ona belə söylə:
"İbranilərin Allahı Rəbb belə deyir: xalqımı burax ki, Mənə ibadət etsin! [14]Çünki Mən
bu dəfə sənin ürəyinə, əyanlarının və xalqının da üzərinə bütün bəlalarımı göndərəcəyəm.
Bundan biləcəksən ki, bütün dünyada Mənə bənzər yoxdur. [15]Əgər indi əlimi uzadıb səni
və xalqını qırğınla cəzalandırmış olsaydım, yer üzündən silinib atılardın. [16] Amma ona
görə səni qoruyub saxladım ki, Öz gücümü sənə göstərim və adım bütün dünyaya elan

edilsin. 17Sən hələ də Mənim xalqıma qarşı durmusan və onu buraxmırsan. 18Budur,
Mən sabah bu vaxt çox güclü bir dolu göndərəcəyəm: elə bir dolu ki Misir qurulandan
indiyə qədər orada olmayıb. 19İndi heyvanlarını və çöldə olan hər şeyini apar, çünki
tarlada qalan bütün insanlar və heyvanlar evə gətirilməsə, onların üzərinə dolu yağacaq
və öləcəklər”». 20Fironun əyanlarından bəzisi Rəbbin sözündən qorxub öz qul və
heyvanlarını tələsik evlərinə gətirdi. 21Rəbbin sözünə etinasızlıq edənlər isə öz qul və
heyvanlarını tarlada qoydular. 22Rəbb Musaya dedi: «Əlini göyə uzat. Qoy bütün Misir
torpağına və orada olan insanların, heyvanların və bütün tarla bitkilərinin üzərinə dolu
yağsın». 23Musa əsasını göyə qaldırdı. Rəbb ildırımla dolu göndərdi və yerə od düşdü;
Rəbb Misir torpağı üzərinə dolu yağdırdı. 24 Beləliklə, çox güclü bir dolu yağdı. Dolu
içində od alışırdı; Misir milləti mövcud olduğu vaxtdan bəri burada belə dolu olmamışdı.
25Dolu bütün Misir torpağında insandan tutmuş heyvana və tarla bitkilərinə qədər hər
şeyi məhv etdi. Çöldə bitən bütün otlar və ağaclar tələf oldu. 26Ancaq İsrail övladlarının
yaşadığı Qoşen torpağına dolu yağmadı. 27Firon Musanı və Harunu çağırtdırıb onlara
dedi: «Bu dəfə günah etdim. Rəbb ədalətlidir, mən və xalqım isə haqsızıq. 28Kifayətdir!
Rəbbə yalvarın ki, bu dəhşətli ildırım və dolu dayansın. Sizi azad edərəm, daha burada
qalmayın». 29Musa ona dedi: «Şəhərdən çıxanda əlimi Rəbbə tərəf qaldıracağam, ildırım
dayanacaq və daha dolu yağmayacaq. Bundan biləcəksən ki, dünya Rəbbə məxsusdur.
30Ancaq mən bilirəm ki, sən və əyanların yenə də Rəbb Allahdan qorxmursunuz». 31Bu
vaxt kətan və arpa məhsulu məhv oldu, çünki arpa dən gətirmiş, kətan isə qozalanmışdı.
32Ancaq buğda və pərinc məhsulu məhv olmadı, çünki onlar gec yetişir. 33Musa fironun
yanından ayrılıb şəhərdən çıxdı və əlini Rəbbə tərəf qaldırdı; ildırım və dolu dayandı və
yerə yağış yağmadı. 34Firon yağışın, dolunun və ildırımın dayandığını görüb yenə də
günah etməyə başladı, özü və əyanları ürəklərini inadkar etdilər. 35Rəbbin Musa
vasitəsilə söylədiyi kimi fironun ürəyi inadkarlaşdı və o, İsrail övladlarını buraxmadı.

# Çıxış 10

### Səkkizinci cəza: çəyirtkə

1Rəbb Musaya dedi: «Fironun yanına get. Mən fironun və əyanlarının ürəyini ona görə
inadkar etmişəm ki, onların arasında Öz əlamətlərimi göstərim. 2Sən isə Misirdə nə cür
işlər etdiyimi və onlara göstərdiyim əlamətləri oğluna və nəvənə nəql edərsən. Onda
biləcəksiniz ki, Rəbb Mənəm». 3Musa və Harun yenə fironun yanına gəlib ona
söylədilər: «İbranilərin Allahı Rəbb belə deyir: “Nə vaxta qədər qarşımda özünü aşağı
tutmaqdan imtina edəcəksən? Xalqımı burax ki, Mənə ibadət etsin! 4Əgər sən Mənim
xalqımı azad etməsən, Mən sabah ölkənə çəyirtkələr göndərəcəyəm. 5Çəyirtkələr yer
üzünü elə örtəcək ki, torpağı görmək olmayacaq. Dolu yağandan sonra sizə qalan şeyləri
də onlar yeyəcəklər; tarladakı ağaclarınızın verdiyi zoğları da yeyəcəklər. 6Onlar sənin,
əyanlarının və bütün Misirlilərin evlərini dolduracaqlar. Belə şeyi nə ataların, nə də
babaların bu torpaqda məskən saldıqları gündən indiyə qədər görməmişdilər”». Musa
dönüb fironun yanından çıxdı. 7Fironun əyanları ona dedilər: «Nə vaxta qədər bu adam
bizə tələ quracaq? Bu adamları burax, qoy onlar özlərinin Allahı Rəbbə ibadət etsinlər.
Məgər sən hələ bilmirsən ki, Misir məhv olur?» 8Musanı və Harunu yenə fironun yanına
çağırdılar. Firon onlara dedi: «Gedin, Allahınız Rəbbə ibadət edin. Ancaq deyin görək
kimlər gedəcək?» 9Musa dedi: «Uşaq, qoca, oğul, qızlarımız, qoyun-keçi və mal-

qaramızla birgə gedəcəyik, çünki Rəbbə bayram etməliyik». [10]Firon onlara dedi: «Əgər
mən sizi arvad-uşağınızla birgə buraxsam, qoy Rəbb sizə kömək olsun! Yəqin sizin pis
niyyətiniz var. [11]Belə olmaz! Siz kişilər gedin və Rəbbə ibadət edin. Məgər bunu
istəmirsiniz?» Sonra firon onları öz hüzurundan qovdu. [12]Onda Rəbb Musaya dedi:
«Əlini Misir torpağının üzərinə uzat. Qoy Misir torpağına çəyirtkələr hücum etsin və
bütün ölkənin bitkilərini, dolu yağandan sonra qalan hər şeyi yesinlər». [13]Musa əsasını
Misir torpağının üzərinə uzatdı. Rəbb ölkəyə bütün o günü və gecəni davam edən şərq
küləyi göndərdi. Səhər açılanda şərq küləyi özü ilə çəyirtkələr gətirdi. [14] Çəyirtkələr
Misir ölkəsinə hücum edərək bütün Misir torpağına yayıldılar. Onlar o qədər çox idi ki,
bu qədəri heç vaxt olmayıb və bundan sonra da olmayacaq. [15]Çəyirtkələr bütün yer
üzünü elə bürüdü ki, torpaq görünmürdü. Onlar ölkənin bütün bitkilərini və dolu
yağandan sonra qalan bütün meyvələrini yedilər; bütün Misir torpağında nə ağaclarda, nə
də çöllüklərdə heç bir yaşıllıq qalmadı. [16]Firon tələsik Musanı və Harunu çağırıb onlara
dedi: «Allahınız Rəbbə və sizə qarşı günah etdim, [17]indi yenə də günahımı bağışlayın və
Allahınız Rəbbə yalvarın ki, bu ölümcül bəla məni tərk etsin». [18]Musa fironun yanından
çıxıb Rəbbə yalvardı. [19]Rəbb küləyi döndərib çox güclü qərb küləyi göndərdi və külək
çəyirtkələri aparıb Qırmızı dənizə atdı və bütün Misir ölkəsində bir çəyirtkə belə,
qalmadı. [20]Ancaq Rəbb fironun ürəyini inadkarlaşdırdı və o, İsrail övladlarını buraxmadı.

**Doqquzuncu cəza: zülmət**

[21] Sonra Rəbb Musaya dedi: «Əlini göyə tərəf uzat ki, Misir torpağında zülmət, qatı
qaranlıq olsun». [22]Musa əlini göyə tərəf uzatdı və Misir torpağında üç gün qatı zülmət
oldu. [23]Üç gün heç kəs bir-birini görmədi və heç kəs yerindən tərpənə bilmədi. Bütün
İsrail övladlarının yaşadıqları yerlər isə işıqlıq idi. [24]Firon Musanı çağırıb dedi: «Gedin,
Rəbbə ibadət edin. Qoy uşaqlarınız da sizinlə getsin, ancaq qoyun-keçiniz və mal-qaranız
burada qalsın». [25]Musa isə dedi: «Sən bizə ünsiyyət qurbanları və yandırma qurbanları
da verməlisən ki, Allahımız Rəbbə qurban gətirək. [26]Heyvanlarımız da bizimlə
getməlidir: bir dırnaqlı da qalmamalıdır, çünki Allahımız Rəbbə qurban gətirmək üçün
onları götürməliyik. Ancaq biz oraya gedib çatmamış Rəbbə nəyi qurban gətirəcəyimizi
bilmirik». [27]Rəbb fironun ürəyini inadkar etdi və o, İsrail övladlarını buraxmaq istəmədi.

**Musa fironun yanından çıxır**

[28]Sonra firon Musaya dedi: «Rədd ol, özünü gözlə və bir də mənim gözümə görünmə.
Yenə də gözümə görünsən, öləcəksən». [29]Musa dedi: «Düz deyirsən, bir daha gözünə
görünmərəm».

# Çıxış 11

[1]Sonra Rəbb Musaya dedi: «Fironun və Misirlilərin üzərinə daha bir cəza göndərəcəyəm.
Bundan sonra o sizi buradan buraxacaq. Hətta nəinki buraxacaq, buradan tamam
qovacaq. [2]Xalqa çatdır ki, hər kişi öz qonşusundan və hər qadın öz rəfiqəsindən qızıl-
gümüş əşyalar istəsin». [3]Rəbb Öz xalqına Misirlilərin gözündə lütf qazandırdı. Musa özü
də Misir ölkəsində fironun əyanlarının və xalqın gözündə çox böyük adam idi. [4]Musa
dedi: «Rəbb belə deyir: “Gecə yarısı Mən Misirin ortasından keçəcəyəm; [5]Misir

torpağında taxtda oturan fironun oğlundan tutmuş dəyirman arxasında olan kəniz oğluna
qədər hamının ilk oğlu öləcək. Hətta bütün heyvanların da ilk balaları öləcək. [6]Bütün
Misir torpağında elə böyük fəryad qopacaq ki, indiyədək beləsi olmamışdır və bundan
sonra da olmayacaq. [7]Lakin bütün İsraillilərin arasında nə insanların, nə də heyvanların
üstünə heç it də hürməyəcək. Bundan biləcəksiniz ki, Rəbb İsrail övladları ilə Misirlilər
arasında fərq qoymuşdur". [8]Sonra bütün bu qulların yanıma gələcək və mənə təzim edib
deyəcəklər: "Sən və ardınca gələn bütün xalq buradan çıxın!" Bundan sonra mən
çıxacağam». Sonra Musa qızğın qəzəblə fironun yanından çıxdı. [9]Rəbb Musaya demişdi:
«Misir torpağında möcüzələrim çoxalsın deyə firon sizə qulaq asmayacaq». [10]Musa və
Harun bütün bu möcüzələri fironun hüzurunda göstərdilər. Ancaq Rəbb fironun ürəyini
inadkarlaşdırdı və o, İsrail övladlarını öz torpağından buraxmırdı.

# Çıxış 12

### Pasxa bayramı üçün təlimat

[1]Misir torpağında Rəbb Musaya və Haruna dedi: [2]«Bu ay sizin üçün ilin ilk ayı olacaq.
[3]Bütün İsrail icmasına söyləyin: qoy bu ayın onuncu günündə hər kəs öz ailəsi üçün bir
quzu, hər ev üçün bir quzu götürsün. [4]Əgər bir adamın ailəsi bir quzu üçün sayca azdırsa,
qoy o adam evinə yaxın qonşusu ilə birgə bir quzu götürüb insanların sayına, hər kəsin
yeyəcəyinə görə bölsün. [5]Özünüzə birillik qüsursuz erkək heyvan götürün: ya
qoyunlardan bir toğlu yaxud keçilərdən bir çəpiş olsun. [6]Onu ayın on dördüncü gününə
qədər saxlayın. Qoy axşamçağı bütün İsrail icmasının camaatı onu kəssin. [7]Qurbanın
qanından götürüb onu yeyəcəkləri evin qapısının hər iki yan taxtasına və üst dirəyinə
sürtsünlər. [8]Qoy həmin gecə onun ətini yesinlər; əti odda bişirib mayasız çörək və acı
göyərti ilə yesinlər. [9]Onu çiy yaxud suda qaynadılmış halda yox, başı, ayaqları və içalatı
ilə birgə odda bişirilmiş halda yeyin. [10]Ondan səhərə qədər bir şey saxlamayın və səhər
qalanını yandırın. [11]Onu belə yeyin: beliniz qurşanmış, çarıqlarınız ayağınızda və
dəyənəyiniz əlinizdə olsun, onu tələsik yeyin. Bu, Rəbbin Pasxasıdır. [12]Mən isə o gecə
Misir torpağından keçəcəyəm. Misir torpağında olan həm insanların bütün ilk oğullarını,
həm də heyvanların bütün ilk balalarını öldürəcəyəm. Bütün Misir allahlarına da cəza
verəcəyəm. Rəbb Mənəm. [13]Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət
olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə
məhvedici bəla gəlməyəcək. [14]Bu gün sizin üçün xatirə günü olacaq və onu Rəbb üçün
bayram edəcəksiniz. Nəsildən-nəslə əbədi qayda olaraq onu bayram edin.

### Mayasız Çörək bayramı

[15]Yeddi gün mayasız çörək yeyin. Hətta birinci gün evlərinizdən mayanı yığışdırın.
Çünki birinci gündən yeddinci günə qədər mayalı çörək yeyən hər kəsin ayağı İsrail
övladlarının arasından kəsilməlidir. [16]Sizin üçün birinci və yeddinci günlərdə müqəddəs
toplantı olsun. Bu günlər hər kəs özünə yemək hazırlamaqdan başqa heç bir iş görməsin.
[17]Bu Mayasız Çörək bayramına ona görə riayət edin ki, məhz həmin gün sizi dəstələrlə
Misir torpağından çıxartdım. Qoy nəsildən-nəslə bu sizin üçün əbədi qayda olsun və bu
günə riayət edin. [18]Birinci ayın on dördüncü gününün axşamından ayın iyirmi birinci
gününün axşamına qədər mayasız çörək yeyin. [19]Yeddi gün evinizdə maya olmasın,

çünki mayalı bir şey yeyən hər kəs istər ölkədə qərib, istərsə də yerli olsun, ayağı İsrail
icmasının arasından kəsilməlidir. [20]Heç bir mayalı şey yeməyin, yaşadığınız hər bir
yerdə mayasız çörək yeyin».

**İlk Pasxa bayramı**

[21]Musa İsrailin bütün ağsaqqallarını çağırıb dedi: «Ailələrinizə görə özünüz üçün toğlu
ya çəpiş seçib götürün və Pasxa qurbanını kəsin. [22]Bir çəngə züfa otu götürüb ləyəndə
olan qana batırın və oradakı qandan qapının üst dirəyinə və yan taxtalarına sürtün. Səhərə
qədər heç kəs evinin qapısından çıxmasın. [23] Rəbb Misirliləri bəlaya salmaq üçün
gələndə qapının üst dirəyinin və hər iki yan taxtasının üzərində qan görüb o qapıdan yan
keçəcək. Məhvedicini evinizə girməyə qoymayacaq. [24]Buna özünüz və övladlarınız üçün
əbədi qayda kimi həmişə riayət edin. [25]Rəbbin söylədiyi kimi sizə verdiyi torpağa
çatanda bu ibadətə riayət edərsiniz. [26]Övladlarınız sizdən “Bu ibadətin mənası sizin üçün
nədir?” deyə soruşduqları zaman [27]onlara söyləyin: “Bu, Misirliləri bəlaya saldığı zaman
Misirdə İsrail övladlarının evləri yanından keçib xilas edən Rəbb üçün Pasxa
qurbanıdır”». Xalq əyilib səcdə etdi. [28]Rəbb Musaya və Haruna necə əmr etmişdisə,
İsrail övladları gedib elə də etdilər.

**Onuncu cəza: ilk övladların ölümü**

[29] Gecəyarısı Rəbb Misir torpağında olan bütün ilk oğulları öldürdü; taxtda oturan
fironun ilk oğlundan tutmuş zindanda olan əsirin ilk oğluna qədər hər ilk oğul,
heyvanların hər ilk balası da öldü. [30]O gecə firon, onun əyanları və bütün Misirlilər
qalxdılar. Misirdən böyük bir fəryad qopdu, çünki elə bir ev yox idi ki, orada ölən
olmasın. [31]Firon gecə Musanı və Harunu çağırıb dedi: «Çıxın gedin! Həm özünüz, həm
də bütün İsraillilər xalqımın arasından çıxın gedin, istədiyiniz kimi Rəbbə ibadət edin.
[32]Necə ki deyirdiniz, qoyun-keçinizi və mal-qaranızı da götürüb gedin, mənə də xeyir-
dua verin». [33]Misirlilər xalqı ölkədən tələsik qovdular. Onlar deyirdilər: «Yoxsa
hamımız öləcəyik». [34]Xalq maya qata bilmədiyi xəmiri götürdü, paltarlarına bürünmüş
xəmir tabaqlarını çiyinlərində apardı. [35] İsrail övladları Musanın sözünə əməl etdilər.
Misirlilərdən qızıl-gümüş əşyalar və paltar istədilər. [36]Rəbb xalqa Misirlilərin gözündə
lütf qazandırdı və onlara istədiklərini verdilər. Beləcə onlar Misirliləri soydular.

**İsrail övladlarının Misirdən çıxışı**

[37]İsrail övladları Ramsesdən Sukkota yola düşdülər. Arvad-uşaqdan əlavə, altı yüz minə
qədər piyada gedən kişi var idi. [38]Qarışıq bir izdiham, çoxlu qoyun-keçi, mal-qara
sürüləri də onlarla birgə yollandı. [39]Misirdən çıxardıqları maya qatılmayan xəmirdən
mayasız kökələr bişirdilər. Çünki Misirdən qovulmuşdular və orada qalıb özlərinə yol
üçün azuqə hazırlaya bilməmişdilər. [40] İsrail övladlarının Misirdə yaşadığı müddət dörd
yüz otuz il olmuşdu. [41]Məhz bu dörd yüz otuz il tamam olan gün Rəbbin bütün dəstələri
Misir torpağından çıxdı. [42]Rəbb o gecə onları Misirdən qurtarmaq üçün ayıq saxladı.
İsrail xalqı bütün nəsillər boyu o gecə Misirlilərin əlindən qurtarmağın xatirəsi kimi Rəbb
üçün ayıq qalmalı idilər.

**Pasxa yeməyinin qaydaları**

43 Rəbb Musaya və Haruna dedi: «Pasxa bayramının qaydaları belədir: heç bir qərib
ondan yeməsin; 44 ancaq hər kəsin pulla satın alınmış qulu sünnət olunduqdan sonra onu
yeyə bilər. 45 Qonaq və muzdlu işçi ondan yeməməlidir. 46 Qoy bu yemək bir evdə
yeyilsin, əti evdən bayıra çıxarılmasın və onun bir sümüyü də qırılmasın. 47 Bütün İsrail
icması bu yeməyi yesin. 48 Sənin yanında qonaq olan qərib Rəbbin Pasxa bayramını
keçirmək istəsə, ailəsində olan bütün kişilərlə birgə sünnət olunsun. Yalnız bu zaman onu
keçirə bilər və o da sizin həmtayfanız kimi sayılar. Sünnət olunmayan heç bir kişi ondan
yeməsin. 49 Yerli üçün də, yanınızda yaşayan yadelli üçün də qanun eynidir». 50 İsrail
övladları Rəbbin Musaya və Haruna əmr etdiyi kimi də etdilər. 51 Rəbb o gün İsrail
övladlarını Misir torpağından dəstələrlə çıxartdı.

# Çıxış 13

**Çıxış xatirəsi**

1 Rəbb Musaya dedi: 2 «İsrail övladları arasında hər bətndən ilk doğulan bütün oğlanları
və bütün heyvanların balalarını Mənim üçün təqdis et; onlar Mənimdir». 3 Musa xalqa
dedi: «Misirdən, köləlik diyarından çıxdığınız bu günü xatırlayın. Çünki Rəbb sizi
qüdrətli əli ilə oradan çıxartdı və buna görə də mayalı çörək yeməyin. 4 Çıxdığınız bu gün
Aviv ayındadır. 5 Rəbb atalarınıza and etmişdi ki, Kənanlıların, Xetlilərin, Emorluların,
Xivlilərin, Yevusluların ölkəsini sizə verəcək. Sizi süd və bal axan torpağa gətirəcəyi
vaxt bu ibadəti həmin ayda icra edin. 6 Yeddi gün mayasız çörək yeyin, yeddinci gün
Rəbbə bayram olsun. 7 O yeddi gün ərzində yalnız mayasız çörək yeyilməlidir. Aranızda
bütün ölkədə nə mayalı çörək, nə də maya görünməsin. 8 O günü övladlarınıza bildirib
deyin: "Misirdən çıxdığım vaxt Rəbb mənim üçün nələr etdiyinə görə belə edirəm".
9 Qoy bu əlinizdə nişanə və gözlərinizin önündə xatirə olsun ki, Rəbbin qanunu dilinizdən
düşməsin. Çünki Rəbb sizi qüdrətli əli ilə Misirdən çıxartdı. 10 İldən-ilə təyin olunan vaxt
bu qanuna riayət edin. 11 Rəbb sizə və atalarınıza and içdiyi kimi Kənanlıların ölkəsinə
gətirib, oranı sizə verən vaxtdan bəri 12 ana bətnindən hər ilk doğulan oğlanlarınızı
Rəbbə təqdim etməlisiniz: ilk doğulan bütün heyvan balaları da Rəbbin olsun. 13 Hər ilk
doğulan eşşək balası əvəzinə bir qoyun-keçi balası verin. Əgər əvəzini verməsəniz,
boynunu sındırın. Övladlarınızın arasında hər ilk oğulun əvəzini ödəyin. 14 Gələcəkdə
övladlarınız sizdən "Bu nədir?" soruşanda deyin: "Rəbb bizi Misirdən, köləlik diyarından
qüdrətli əli ilə çıxartdı. 15 Firon bizi buraxmamağa inadkarlıq edəndə Rəbb Misir
torpağında olan həm insanların bütün ilk oğlanlarını, həm də heyvanların bütün ilk
balalarını öldürdü. Buna görə mən bütün ilk doğulan heyvan balalarını Rəbbə qurban
verirəm, bütün ilk oğullarımın isə əvəzini ödəyirəm". 16 Qoy bu əlinizdə nişanə və
gözünüz önündə xatirə olsun, çünki Rəbb bizi qüdrətli əli ilə Misirdən çıxartdı».

**Allah İsrail övladlarına yol göstərir**

17 Firon xalqı buraxdığı zaman Allah onları Filiştlilərin ölkəsindən yol qısa olduğuna
baxmayaraq, o yolla gətirmədi. Çünki O dedi: «Yoxsa xalq müharibə görəndə bəlkə
peşman olub Misirə qayıdar». 18 Allah xalqı Qırmızı dənizə tərəf səhra yolu ilə dolayı

apardı. İsrail övladları Misir torpağından silahlanıb çıxdılar. [19] Musa Yusifin sümüklərini
özü ilə apardı, çünki Yusif İsrail övladlarına «Allah mütləq sizə nəzər salacaq. Gedən
zaman özünüzlə sümüklərimi də buradan çıxarın» deyərək and içdirmişdi. [20]İsrail
övladları Sukkotdan yola düşüb səhranın kənarında olan Etamda düşərgə saldılar. [21]Rəbb
onların qabağı ilə gündüz onlara yol göstərmək üçün bulud dirəyində, gecə isə onlara işıq
vermək üçün od dirəyində gedirdi ki, gündüz də, gecə də gedə bilsinlər. [22]Gündüzlər
bulud dirəyi, gecələr isə od dirəyi xalqın önündən ayrılmadı.

# Çıxış 14

[1]Rəbb Musaya dedi: [2]«İsrail övladlarına belə söylə: "Dönüb Pi-Haxirot qabağında
düşərgə salın. Miqdol ilə dənizin arasında, Baal-Sefon qarşısında dənizin sahilində
düşərgəniz olsun". [3]Firon düşünəcək ki, İsrail övladları torpaqda dolaşır, səhra onların
yolunu kəsmişdir. [4]Mən isə fironu inadkar edəcəyəm ki, o sizi təqib etsin. Sonra firon və
onun ordusunu məğlub edib izzətimi göstərəcəyəm. Bütün Misirlilər biləcəklər ki, Rəbb
Mənəm». İsraillilər belə də elədilər.

### Misirlilər İsrail övladlarını təqib edirlər

[5]Misir padşahına İsrail xalqının qaçdığını xəbər verəndə firon və məmurlarının fikri
dəyişdi. Onlar dedilər: «Biz nə üçün belə etdik? İsrail övladları bizim qullarımız idi. Axı
niyə onları buraxdıq?» [6]Firon döyüş arabalarını hazırlayıb adamlarını özü ilə götürdü.
[7]O, altı yüz seçmə döyüş arabasını və Misirin bütün arabalarını götürdü. Hər arabanın öz
zabiti var idi. [8]Rəbb Misir padşahı fironun ürəyini yenə də inadkar etdi və o, İsrail
övladlarını təqib etdi. İsrail övladları isə cürətlə gedirdilər. [9]Misirlilər, fironun bütün
araba atları, süvariləri və ordusu onları təqib edib Pi-Haxirot yanında, Baal-Sefon
qarşısında dənizin sahilində qurduqları düşərgəyə çatdılar. [10]Firon yaxınlaşanda İsrail
övladları baxıb gördülər ki, Misirlilər onlara doğru gəlirlər. Buna görə də İsrail övladları
çox qorxdu və Rəbbə fəryad etdilər. [11]Onlar Musaya dedilər: «Məgər Misirdə
qəbiristanlıq yoxdur ki, sən bizi səhrada ölməyə apardın? Bizi Misirdən çıxarıb başımıza
nə gətirdin? [12]Misirdə sənə "Bizdən əl çək, Misirlilərə qulluq edək!" demirdikmi?
Səhrada ölməkdən Misirlilərə qulluq etmək bizim üçün yaxşıdır». [13]Musa isə xalqa belə
dedi: «Qorxmayın! Durun, Rəbbin bu gün sizi necə xilas edəcəyinə baxın. İndi
gördüyünüz Misirliləri daha heç vaxt görməyəcəksiniz. [14]Sakit olun, Rəbb sizin üçün
döyüşəcək!»

### Qırmızı dənizdən keçid

[15]Rəbb Musaya dedi: «Nə üçün Mənə fəryad edirsən? İsrail övladlarına de ki, yola
düşsünlər. [16]Sən isə əsanı qaldırıb, əlini dənizin üzərinə uzat, sularını yar ki, İsrail
övladları dənizin ortasında quru yerdən keçsinlər. [17]Mən Misirlilərin ürəklərini inadkar
edəcəyəm ki, sizi təqib etsinlər. Sonra fironu, onun bütün ordusunu, döyüş arabalarını və
süvarilərini məğlub edib izzətimi göstərəcəyəm. [18]Fironu, döyüş arabalarını və
süvarilərini məğlub edib izzətimi göstərdiyim zaman Misirlilər biləcəklər ki, Rəbb
Mənəm». [19]İsrail düşərgəsinin önündə gedən Allahın mələyi onların arxasına keçdi.
Bulud dirəyi önlərindən arxalarına keçib, [20]Misir ordusunun və İsrail düşərgəsinin

arasında durdu. Bulud bir tərəfə zülmət verdi, o birisinə isə gecə işığı verdi. Bütün gecə
bu xalqlar bir-birinə yaxınlaşmadılar. [21]Musa əlini dəniz üzərinə uzatdı. Rəbb bütün gecə
əsən qüvvətli şərq küləyi ilə dənizin suyunu qovub yerini quruya çevirdi. Sular yarıldı və
[22] İsrail övladları dənizin ortasında quru yerdən keçdilər. Sular onlar üçün sağ və sol
tərəfdən divar oldu. [23]Misirlilər onları təqib etdilər; fironun atları, döyüş arabaları və
süvariləri İsrail övladlarının ardınca dənizin ortasına girdilər. [24]Dan yeri söküləndə Rəbb
od və bulud dirəyindən Misir ordusuna baxıb onların arasına qarışıqlıq saldı. [25]O,
arabaların çarxlarını elə ləngitdi ki, arabalar güclə hərəkət etdi. Misirlilər dedilər: «Gəlin
İsrail övladlarından qaçaq, çünki Rəbb onların tərəfində bizə qarşı döyüşür». [26]Rəbb
Musaya belə dedi: «Əlini dənizin üzərinə uzat ki, sular Misirlilərin, döyüş arabalarının və
süvarilərin üzərinə qayıtsın». [27]Musa əlini dənizin üzərinə uzatdı. Səhərə yaxın dəniz adi
hala qayıtdı. Misirlilər sulardan qaçmaq istəyəndə Rəbb onları itələyib dənizin ortasına
atdı. [28]Yerinə qayıdan sular döyüş arabalarını, süvariləri, İsrail övladlarının ardınca
dənizə gedən fironun bütün ordusunu örtüb uddu. Onlardan bir nəfər də olsun sağ
qalmadı. [29]İsrail övladları isə dənizin ortasında quru yerdən keçib getmişdilər. Sular
onlar üçün sağ və sol tərəfdə divar olmuşdu. [30]Məhz o gün Rəbb İsraili Misirlilərin
əlindən xilas etdi. İsrail xalqı Misirliləri dənizin sahilində ölü gördü. [31]İsrail xalqı Rəbbin
Misirlilərə böyük qüvvətlə nə etdiyini görəndə Rəbdən qorxdu, Ona və qulu Musaya
güvəndi.

# Çıxış 15

**Musanın qurtuluş ilahisi**

[1]O vaxt Musa ilə İsrail övladları Rəbbə bu ilahini oxudular: «Rəbbə ilahi oxuyacağam,

Çox böyük zəfər çaldı.

Atı və süvarini dənizə tulladı.

[2] Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi.

Rəbb mənim Allahımdır, Ona həmd edəcəyəm.

Atamın Allahıdır, Rəbbi yüksəldəcəyəm.

[3]Rəbb döyüşçüdür, Rəbdir Onun adı.

[4]Fironun döyüş arabalarını,

Ordusunu da dənizə atdı.

Döyüş arabalarının başçıları

Qırmızı dənizdə boğuldu.

5Əngin sulara bürünüb

Daş tək dərinliklərə

Necə də qərq oldular.

6Ya Rəbb! Sənin sağ əlin qüdrətdən izzətləndi.

Ya Rəbb! Sənin sağ əlin düşməni əzəndir.

7Sənə qarşı çıxanları möhtəşəm əzəmətin yıxar,

Sənin göndərdiyin qəzəb onları saman çöpü tək yandırar.

8Burnunun nəfəsi ilə sular toplanar,

Yığılar bir yerə, axınlar dayanar,

Dəniz qoynunda coşan sular qatılaşar.

9Düşmən dedi:

“İzləyim, çatıb qənimət paylayım:

Bundan canım doyacaq,

Qılıncımla onları məhv edəcəyəm”.

10Nəfəsinlə üfürdün, dənizlə onları bürüdün.

Qurğuşun tək onlar nəhəng sularda batdılar.

11Ya Rəbb, allahlar arasında Sənin kimisi varmı?

Müqəddəslikdə əzəmətli, zəhmli və alqışlara layiq,

Möcüzələr yaradan Sənin kimisi varmı?

12Sağ əlini uzadanda torpaq onları uddu.

13Məhəbbətinlə qurtardığın xalqa Sən yol göstərdin.

Müqəddəs məskəninə Öz gücünlə apardın.

14Xalqlar eşidib əsdi,

Filişt sakinlərini qorxu kəsdi.

[15]Edom başçılarını o an dəhşət bürüdü.

Moav igidlərini vahimələrə saldı.

Kənan sakinləri isə üzülüb qaldı.

[16]Onların üzərini qorxu, vəlvələ aldı.

Güclü qoluna görə daş tək lal-kar oldular,

O vaxtadək ki xalqın keçəcək,

Ya Rəbb, qurtardığın xalq keçəcək!

[17]Ya Rəbb, xalqını gətirib salacaqsan mülkün olan dağına,

Yaşamaq üçün Özünə yaratdığın yerə,

Ey Xudavənd! Əlinlə qurduğun Müqəddəs məkanına.

[18]Rəbb əbədi, daima padşahlıq edəcəkdir».

[19]Fironun atları, döyüş arabaları və süvariləri ilə birgə dənizə girəndə Rəbb dənizin
sularını onların üzərinə geri qaytarmışdı. İsrail övladları isə dənizin ortasında quru yerdən
keçmişdilər. [20]Harunun bacısı peyğəmbər Məryəm əlinə dəf aldı; bütün qadınlar əllərinə
dəf alıb oynayaraq onun ardınca çıxdılar. [21]Məryəm onların qarşısında bu ilahini oxudu:
Rəbbə ilahi oxuyun,

Çox böyük zəfər çaldı.

Atı və süvariləri dənizə tulladı!

**Acı su**

[22]Musa İsrail xalqını Qırmızı dənizin sahilindən gedən yola gətirdi. Onlar Şur səhrasına
çıxıb orada üç gün yol getdilər, amma su tapmadılar. [23]Maraya çatdılar, lakin oranın
suyunu içə bilmədilər, çünki çox acı idi. Buna görə də o yer Mara adlanır. [24]Xalq «Nə
içək?» deyə Musadan giley-güzar etdi. [25]Musa Rəbbə fəryad etdi və Rəbb ona bir ağac
göstərdi. Musa onu suya atdı və su şirin oldu. Orada İsrail övladlarını sınağa çəkdiyi
yerdə Rəbb onlar üçün qayda-qanun qoyaraq dedi: [26]«Əgər siz Allahınız Rəbbin səsinə
qulaq asıb Onun gözündə doğru olsanız, Onun əmrlərini dinləyib bütün qanunlarına
riayət etsəniz, Misirlilərə verdiyim xəstəliklərin heç birini sizə verməyəcəyəm. Çünki sizə
şəfa verən Rəbb Mənəm». [27] Sonra İsrail övladları Elimə gəldilər. Orada on iki su
qaynağı və yetmiş xurma ağacı var idi. İsrail xalqı orada sular ətrafında düşərgə qurdu.

# Çıxış 16

**Allah manna və bildirçinləri göndərir**

1Bütün İsrail övladlarının icması Elimdən yola düşdü. Onlar Misir ölkəsindən çıxdıqdan
sonra ikinci ayın on beşinci günü Elim və Sina dağı arasındakı Sin səhrasına çatdılar.
2Səhrada bütün İsrail övladlarının icması Musa ilə Harunun əlindən giley-güzar etdi.
3İsraillilər onlara dedilər: «Kaş ki Misir ölkəsində ət qazanlarının yanında oturanda
doyunca çörək yediyimiz vaxt Rəbbin əlində öləydik! Siz bizi bu səhraya ona görə
gətirdiniz ki, bütün bu camaatı aclıqdan öldürəsiniz». 4 Rəbb Musaya dedi: «Budur, Mən
sizin üçün göydən çörək yağdıracağam. Qoy xalq hər gün çıxıb lazımi miqdarda o çörəyi
yığsın. Mənsə onları sınayacağam ki, qanunuma görə yaşayırlar ya yox. 5Altıncı gün
yığdıqları digər günlər yığdıqlarından ikiqat artıq olsun, o gün də onu hazırlasınlar».
6Musa və Harun bütün İsrail övladlarına dedilər: «Axşam biləcəksiniz ki, sizi Misir
ölkəsindən çıxaran Rəbdir. 7Səhər isə Rəbbin izzətini görəcəksiniz. Çünki Rəbb Onun
əlindən giley-güzarınızı eşitdi. Axı biz kimik ki, siz əlimizdən giley-güzar edirsiniz?»
8Musa dedi: «Sizə axşam yeməyə ət, səhər isə doyunca çörək verən Rəbdir; çünki sizin
Ona qarşı olan deyinməyinizi eşidən Odur. Axı biz kimik ki? Deyinməyiniz bizə qarşı
deyil, Rəbbə qarşıdır». 9Musa Haruna dedi: «Bütün İsrail icmasına belə söylə: "Rəbbin
hüzuruna yaxınlaşın, çünki O sizin deyinməyinizi eşitmişdir"». 10Harun bütün İsrail
övladlarının icması ilə danışdığı vaxt onlar səhraya baxıb Rəbbin əzəmətinin buludda
göründüyünü gördülər. 11Rəbb Musaya dedi: 12«Mən İsrail övladlarının deyinməklərini
eşitdim. Onlara de: axşamçağı ət yeyəcək, səhər isə çörəklə doyacaqsınız. Onda
biləcəksiniz ki, Allahınız Rəbb Mənəm». 13Axşam bildirçinlər uçub bütün düşərgəni
bürüdülər. Səhər düşərgənin ətrafına şeh düşdü. 14Şeh buxarlananda səhrada, torpaq
üzərində qırova bənzər nazik lopalar göründü. 15 İsraillilər bunu gördükdə bir-birinə «Bu
nədir?» dedilər, çünki onun nə olduğunu bilmirdilər. Musa onlara dedi: «Bu Rəbbin sizə
yeməyə verdiyi çörəkdir. 16Rəbbin əmri budur: hər adam yemək üçün özünə lazımi
miqdarda ondan yığsın. Öz çadırında olan adamların sayına görə adambaşı bir omer
götürsün». 17İsrail övladları belə də etdilər. Kimi çox, kimi də az yığdı. 18 Onlar omer ilə
ölçdükləri zaman çox yığanın artığı, az yığanın əskiyi olmadı. Hər kəs özünə lazımi
miqdarda yemək yığdı. 19Musa İsrail övladlarına dedi: «Qoy səhərə qədər heç kimdə bu
yeməkdən qalmasın». 20Lakin bəziləri Musanın sözünə baxmayıb bundan səhərə qədər
saxladılar. Saxladıqları yemək qurdlanıb iyləndi. Musa onlara qəzəbləndi. 21İsrail
övladlarından hər kəs özünə lazımi miqdarda hər səhər ondan yığırdı. Günəş qızanda isə
o əriyirdi. 22İsrail övladları altıncı gün bu yeməkdən ikiqat artıq, adambaşı iki omer
yığdılar. İcma başçıları gəlib bunu Musaya bildirdilər. 23 Musa onlara dedi: «Rəbb belə
deyir: "Sabah istirahət günü – Rəbb üçün təqdis olunan Şənbə günüdür. Bu gün
bişirdiyiniz hər şeyi bişirin, qaynatdığınız hər şeyi qaynadın, artığı da özünüz üçün səhərə
qoyub saxlayın"». 24İsrail övladları Musa onlara əmr etdiyi kimi yeməyi səhərə
saxladılar. Onun içində nə qurd oldu, nə də iyləndi. 25Musa dedi: «Bu gün o yeməyi
yeyin, çünki Rəbb üçün Şənbə günüdür. Bu gün çöldə yemək tapmayacaqsınız. 26Siz onu
altı gün ərzində yığın; yeddinci gün – Şənbə günü o yemək yox olacaq». 27Xalqın
bəziləri yeddinci gün yemək yığmağa çıxdılar, amma tapmadılar. 28Rəbb Musaya dedi:
«Nə vaxta qədər əmrlərimə və qanunlarıma itaət etməkdən boyun qaçıracaqsınız?
29Baxın Rəbb sizə Şənbə günü verdi. Buna görə də O sizə hər altıncı gün iki günlük

yemək verir. Qoy hər kəs öz evində qalsın və yeddinci gün heç yerə çıxmasın». 30Beləcə
xalq yeddinci gün istirahət etdi. 31 İsrail xalqı bu yeməyin adını «manna» qoydu. O,
görünüşcə keşniş toxumu kimi idi, rəngi ağ, dadı isə ballı yuxaya bənzəyirdi. 32Musa
dedi: «Rəbbin əmri budur: "Mannadan bir omer doldurun; Misir ölkəsindən sizi
çıxardığım zaman səhrada sizə yedirtdiyim yeməyi görmək üçün qoy bu nəsildən-nəslə
qorunsun"». 33 Musa Haruna dedi: «Bir qab götür, ona omer dolu manna qoy. Bu Rəbbin
hüzurunda nəsildən-nəslə qorunub saxlanmalıdır». 34Rəbbin Musaya əmr etdiyi kimi
Harun onu Şəhadət sandığının önündə qoruyub saxladı. 35 İsrail övladları qırx il ərzində
əhalisi olduqları Kənan ölkəsinin sərhədinə gələnə qədər manna yedilər. 36Bir omer
efanın onda bir hissəsidir.

# Çıxış 17

### Qayadan çıxan su

1Bütün İsrail övladlarının icması Sin səhrasından yola düşüb Rəbbin buyurduğuna görə
dayana-dayana köç edirdilər. Onlar Refidimdə düşərgə saldılar. Orada xalqın içməyə
suyu yox idi. 2Ona görə də xalq Musa ilə münaqişə edib belə dedi: «Bizə içməyə su
verin». Musa onlara dedi: «Niyə mənimlə münaqişə edirsiniz? Nə üçün Rəbbi
sınayırsınız?» 3Xalq orada olanda susamışdı. Ona görə də Musanın əlindən deyinib dedi:
«Axı niyə bizi Misirdən çıxartdın? Bu bizi, oğullarımızı və heyvanlarımızı susuzluqdan
öldürmək üçündürmü?» 4Musa Rəbbə fəryad edib dedi: «Axı mən bu xalq ilə nə edim?
Bir az da keçsə, məni daşqalaq edəcəklər». 5Rəbb Musaya dedi: «Xalqın qarşısına çıx.
Özünlə bərabər bir neçə İsrail ağsaqqalı götür. Nil çayına vurduğun əsanı əlinə alıb irəli
get. 6Orada – Xorevdəki qayanın üstündə Mən sənin önündə dayanacağam. Zərbə ilə
qayaya vur və oradan xalq üçün içməli su çıxacaq». Musa da İsrail ağsaqqallarının gözü
qarşısında bunu etdi. 7Musa o yeri Massa və Meriva adlandırdı, çünki orada İsrail
övladları münaqişə etmişdilər və «görəsən Rəbb aramızdadır ya yox» deyə Rəbbi
sınamışdılar.

### Amaleqlilərlə döyüş

8Bundan sonra Amaleqlilər gəlib Refidimdə İsrail övladları ilə döyüşdülər. 9Musa
Yeşuaya dedi: «Bizim üçün bir neçə adam seç, get Amaleqlilərlə döyüş. Sabah mən
əlimdə Allahın əsası ilə təpənin başında dayanacağam». 10Yeşua da Musa deyən kimi
etdi və gedib Amaleqlilərlə döyüşdü. Musa, Harun və Xur isə təpənin başına çıxdılar.
11Musa əlini qaldıranda İsrail övladları üstün gəlirdi, əlini endirəndə isə Amaleqlilər
üstün gəlirdi. 12Lakin Musanın əlləri yorulurdu. Ona görə də bir daş götürüb onun altına
qoydular. Musa daşın üstündə oturdu. Əlinin birindən Harun, o birisindən isə Xur
yapışdı. Beləcə Musanın gün batanacan əlləri möhkəm qaldı. 13Yeşua Amaleq xalqını
qılıncdan keçirib qırdı. 14 Rəbb Musaya dedi: «Bunu xatirə olaraq kitaba yaz, Yeşuanın
qulağına çatdır ki, Mən Amaleqin adını büsbütün yer üzərindən siləcəyəm». 15Musa bir
qurbangah düzəldərək adını Yahve-Nissi qoyub 16dedi: «Rəbbin taxtına doğru əl
uzadılırdı. O, nəsildən-nəslə Amaleqlilərə qarşı döyüşəcək».

# Çıxış 18

**Yetronun Musaya baş çəkməsi**

1Midyanlıların kahini olan Musanın qayınatası Yetro Allahın Musa və xalqı İsrail üçün
gördüyü bütün işləri, Rəbbin İsraili Misirdən çıxartdığını eşitdi. 2 Musanın qayınatası
Yetro Musanın arvadı Sipporanı iki oğlu ilə birgə geri gətirdi. Musa əvvəlcədən arvadını
onun yanına göndərmişdi. 3Musa «mən yad bir ölkədə qərib oldum» deyib oğlanlarının
birinin adı Gerşom qoymuşdu. 4«Atamın Allahı köməyim oldu və məni fironun
qılıncından qurtardı» deyib o birisinin adını Eliezer qoymuşdu. 5Musanın qayınatası
Yetro, oğulları və arvadı Musanın düşərgə saldığı Allahın dağı yerləşən səhraya gəlib,
6bu xəbəri Musaya göndərdi: «Mən – sənin qayınatan Yetro, arvadın və iki oğlunla
yanına gəlirəm». 7Musa qayınatasının qarşısına çıxdı, təzim edib onunla öpüşdü; onlar
bir-birlərindən hal-əhval tutub çadıra girdilər. 8Musa qayınatasına Rəbbin İsrail
övladlarının xatirinə firona və Misirlilərə etdiyi bütün şeylər, yolda çəkdikləri bütün
əziyyəti və Rəbbin onları necə qurtardığını nəql etdi. 9Yetro Rəbbin İsrail övladlarına
etdiyi bütün yaxşılıqlara və Misirlilərin əlindən onları qurtardığına görə sevindi. 10Yetro
dedi: «Sizi Misirlilərin və fironun əlindən qurtaran Rəbbə alqış olsun! Xalqı Misirlilərin
əlinin altından qurtaran Odur. 11İndi bildim ki, Rəbb bütün allahlardan böyükdür, çünki
onların öyündüklərindən də üstün oldu». 12Sonra Musanın qayınatası Yetro Allaha
yandırma və ünsiyyət qurbanları gətirdi. Harun ilə İsrail övladlarının bütün ağsaqqalları
Musanın qayınatası ilə Allahın hüzurunda yemək yeməyə gəldilər.

**Yetronun nəsihəti**

**(Qanun. 1:9-18)**

13Ertəsi gün Musa oturub xalqa hakimlik edirdi. Xalq da səhərdən axşamadək Musanın
ətrafında dayanmışdı. 14Qayınatası Musanın xalq üçün nə etdiyinə baxıb dedi: «Nə üçün
bu xalqa belə edirsən? Niyə sən tək oturursan və bütün xalq səhərdən axşamadək
ətrafında dayanıb gözləyir?» 15Musa qayınatasına dedi: «Ona görə ki xalq Allahdan
soruşmaq üçün mənim yanıma gəlir. 16Həll olunmalı məsələləri olan adamlar yanıma
gələndə aralarında qərar çıxarıram. Allahın qayda-qanunlarını da onlara bildirirəm».
17Musanın qayınatası ona dedi: «Gördüyün iş yaxşı deyil. 18Əlbəttə, həm sən, həm də
səninlə olan xalq üzülərsiniz. Axı bu iş sənin üçün ağırdır, onu təkbaşına edə bilməzsən.
19İndi sözümə qulaq as, sənə bir məsləhət verim. Qoy Allah sənə yar olsun! Sən bu xalqa
görə Allahın hüzurunda dayan və işlərini də Ona çatdır. 20Onları qayda-qanunlar
barəsində xəbərdar et, gedəcəkləri yolu və görəcəkləri işi göstər. 21Bütün xalq arasından
bacarıqlı, Allahdan qorxan, etibarlı, haram qazanca nifrət edən adamları seç. Onları
minbaşı, yüzbaşı, əllibaşı, onbaşı təyin et ki, 22xalqı hər zaman mühakimə etsinlər. Qoy
hər böyük işi sənin yanına gətirsinlər, hər kiçik işə isə özləri hakimlik etsinlər. Beləcə öz
yükünü yüngülləşdir. Qoy o adamlar bu yükü səninlə daşısınlar. 23Əgər belə etsən, Allah
da sənə belə əmr etsə, dözə bilərsən. Bütün xalq da razı olub öz yerinə gedər». 24Musa
qayınatası deyən sözlərə qulaq asıb əməl etdi. 25Bundan sonra Musa İsrail övladları
arasından bacarıqlı adamlar seçdi və onlardan xalqa başçı – minbaşılar, yüzbaşılar,
əllibaşılar, onbaşılar təyin etdi. 26Onlar hər vaxt xalqı mühakimə edirdilər. Çətin işləri isə

Musanın yanına gətirir, hər kiçik işi isə özləri mühakimə edirdilər. [27]Sonra Musa
qayınatasını yola saldı, o da öz ölkəsinə getdi.

# Çıxış 19

### İsrail övladları Sina dağında

[1]İsrail övladları Misir torpağından çıxdıqdan sonra üçüncü ayda – yeni ay günü Sina
səhrasına gəldilər. [2]Onlar Refidimdən köçüb Sina səhrasına gəldilər. O səhrada İsrail
övladları dağın qarşısında düşərgə saldılar. [3]Musa isə dağa – Allahın hüzuruna çıxdı.
Rəbb onu dağdan çağırıb dedi: «Yaqub nəslinə, İsrail övladlarına belə söylə:
[4]“Misirlilərə nələr etdiyimi, sizi qartal qanadlarında daşıdığım kimi yanıma gətirdiyimi
siz özünüz gördünüz. [5] İndi isə əgər sözümə diqqətlə qulaq asıb əhdimə riayət etsəniz,
siz bütün xalqlar arasından Mənə məxsus xalq olacaqsınız. Bütün yer üzü Mənimdir; [6]siz
isə Mənə xidmət edən kahinlər padşahlığı, müqəddəs millət olacaqsınız”. Bu sözləri İsrail
övladlarına söylə». [7]Musa gəlib xalqın ağsaqqallarını çağırdı və Rəbbin ona əmr etdiyi
hər kəlməni onların qarşısına qoydu. [8]Bütün xalq bir nəfər kimi belə cavab verdi:
«Rəbbin bütün söylədiklərinə əməl edəcəyik». Musa xalqın cavabını Rəbbə çatdırdı.
[9]Rəbb Musaya dedi: «Budur, Mən sənin yanına qatı buludda gəlirəm, qoy xalq səninlə
danışdığımı eşidib sənə daim inansın». Musa xalqın sözlərini Rəbbə çatdırdı. [10]Rəbb
Musaya dedi: «Xalqın yanına get. Bu gün və sabah onları təqdis et. Qoy paltarlarını da
yusunlar. [11]Üçüncü günə hazır olsunlar, çünki üçüncü gün bütün xalqın gözü qarşısında
Rəbb Sina dağı üzərinə enəcək. [12] Xalqın ətrafına sərhəd çəkib de: “Özünüzü dağa
çıxmaqdan, onun ətəyinə toxunmaqdan gözləyin. Dağa toxunan hər kəs öldürülməlidir.
[13]Eləsinə əl vurulmasın, ancaq daşqalaq edilsin ya da oxla vurulsun. İstər heyvan, istərsə
də insan, bunların yaşamaq üçün izni yoxdur. Qoç buynuzundan olan şeypur uzun-uzadı
çalınanda onlar dağa çıxa bilərlər”». [14]Musa dağdan xalqın yanına endi. O, xalqı təqdis
etdi. Onlar paltarlarını yudular. [15]Sonra Musa xalqa dedi: «Üçüncü günə hazır olun,
qadınlarla yaxınlıq etməyin». [16] Üçüncü günün səhəri açılanda göy gurultusu, şimşəklər,
dağ üzərində qatı bir bulud və çox uca şeypur səsi oldu. Düşərgədə olan bütün xalq
titrədi. [17]Allahı qarşılamaq üçün Musa xalqı ordugahdan apardı və onlar dağın ətəyində
durdular. [18]Bütün Sina dağı tüstü içində idi, çünki Rəbb onun üzərinə alov içərisində
enmişdi. Bütün dağ kürənin verdiyi tüstü kimi tüstülənirdi, bərk titrəyirdi. [19]Şeypur səsi
get-gedə ucalırdı. Musa danışırdı və Allah ona səslə cavab verirdi. [20]Rəbb Sina dağı
üzərinə, dağın başına endi və Musanı dağın başına çağırdı. Musa oraya qalxdı. [21]Rəbb
Musaya dedi: «Düş, xalqa tapşır ki, məbada Rəbbi görmək üçün Onun tərəfində olan
sərhədi keçsin, yoxsa çoxları məhv olar. [22]Rəbbə yaxınlaşan kahinlər də özlərini təqdis
etsin ki, Rəbb onlara qarşı çıxmasın». [23]Musa Rəbbə dedi: «Xalq Sina dağına çıxmaz,
çünki Sən “dağa sərhəd çək və oranı təqdis et” deyə bizə tapşırıq verdin». [24]Rəbb ona
dedi: «Düş get. Sən və səninlə bərabər Harun bura çıxın. Qoy kahinlərlə xalq Rəbbin
yanına çıxmaq üçün sərhədi keçməsinlər, yoxsa Rəbb xalqa qarşı çıxar». [25]Musa xalqın
yanına enib bunu onlara söylədi.

# Çıxış 20

### Allahın on əmri

### (Qanun. 5:1-21)

1Allah bütün bu sözləri belə söylədi: 2«Səni Misir torpağından, köləlik diyarından
çıxaran Allahın Rəbb Mənəm. 3Məndən başqa allahların olmasın. 4 Özün üçün heç bir
oyma büt, nə yuxarıda – səmada və ya aşağıda – yerdə, nə də yerdən aşağıya yığılan
sulardakı şeylərin heç birinin surətini düzəltmə. 5 Belə şeylərə səcdə qılaraq ibadət etmə.
Çünki Mən, sənin Allahın Rəbb, qısqanc Allaham. Mənə nifrət edən ataların cəzasını üç-
dörd nəslə qədər övladlarına çəkdirərəm. 6Məni sevib əmrlərimə əməl edənlərin isə
minlərlə nəslinə məhəbbət göstərərəm. 7 Allahın Rəbbin adını boş yerə dilinə gətirmə,
çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz. 8 Şənbə gününü yadda
saxlayıb təqdis et. 9 Altı gün çalışıb bütün işlərini gör. 10Lakin yeddinci gün Allahın
Rəbbin Şənbə günüdür. Bu gün sən, oğlun, qızın, qulun, qarabaşın, heyvanların, yanında
qalan yadelli də heç bir iş görməsin. 11 Çünki altı gün ərzində Rəbb göyləri və yeri,
dənizi və kainatdakı hər şeyi yaratdı, yeddinci gün isə istirahət etdi. Bunun üçün Rəbb
Şənbə gününə bərəkət verib onu müqəddəs saydı. 12 Ata-anana hörmət et ki, Allahın
Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun. 13 Qətl etmə. 14 Zina etmə. 15 Oğurluq
etmə. 16 Heç kimə qarşı yalandan şahidlik etmə. 17 Heç kimin evinə tamah salma. Heç
kimin arvadına, quluna, qarabaşına, öküzünə, eşşəyinə – heç bir şeyinə tamah salma».

### Xalqın qorxusu

### (Qanun. 5:22-33)

18 Bütün xalq göy gurultusunu, şimşəkləri, şeypur səsini, dağın tüstülənməsini eşidib
görəndə qorxub sarsıldı və uzaqda durdu. 19Musaya dedilər: «Sən bizimlə danış, biz də
eşidək. Qoy Allah bizimlə danışmasın, yoxsa ölərik». 20Musa xalqa dedi: «Qorxmayın,
Allah ona görə gəlib ki, sizi sınağa çəksin və siz günah etməmək üçün Onun qorxusu
qarşınızda olsun». 21Xalq uzaqda duranda Musa orada Allahın olduğu qatı qaranlığa
yaxınlaşdı.

### Qurbangah haqqında

22 Rəbb Musaya dedi: «İsrail övladlarına belə de: "Siz gördünüz ki, Mən sizinlə
göylərdən danışdım. 23Özünüz üçün nə qızıldan, nə də gümüşdən Mənə şərik olan
allahlar düzəltməyin. 24Mənim üçün torpaqdan qurbangah düzəldib yandırma və ünsiyyət
qurbanları olaraq öz qoyun-keçi və mal-qaranı onun üstündə qurban gətir. Adım çəkilən
hər yerdə yanına gəlib sənə bərəkət verəcəyəm. 25 Əgər mənim üçün daşdan qurbangah
düzəltsən, yonma daşdan tikmə, çünki onun üzərində alətlə işləsən, onu murdar edərsən.
26Ayıbın açılmamaq üçün Mənim qurbangahıma pilləkənlə çıxma".

# Çıxış 21

[1]Sən onların qarşısına bu hökmləri qoymalısan:

**İbrani qullar**

**(Qanun. 15:12-18)**

[2] Sizdən biri İbrani qul alarsa, o qul altı il qulluq edib yeddinci il pulu ödəmədən azad
olunsun. [3]Əgər qulun tək gəlib, qoy tək də getsin; yox, əgər arvadı vardısa, qoy arvadı ilə
getsin. [4]Əgər qul sahibi quluna arvad veribsə və qulun arvadı oğlan yaxud qız doğubsa,
arvadla uşaqları ağası üçün qalsın. Qul isə tək getsin. [5]Lakin qul təkidlə: “Ağamı,
arvadımla uşaqlarımı sevirəm və azad olmaq istəmirəm” desə, [6]onda qoy qulun ağası onu
məbədə – Allahın hüzuruna gətirsin. Qulunu qapıya yaxud qapının yan taxtasına
söykəyib qulağını bizlə deşsin. Bu qul ağasına ömürlük qulluq etsin. [7]Bir adam qızını
qarabaş olaraq satarsa, qız kişi qullar kimi azad olmasın. [8]Əgər o qız onu özü üçün təyin
edən ağasının gözündə pis görünərsə, ağası qızın ödənmə pulunu qəbul edib onu azad
etsin; o ağanın qızı yadellilərə satmağa ixtiyarı yoxdur, çünki o qızla xaincəsinə rəftar
etdi. [9]Əgər ağa onu oğlu üçün təyin edibsə, onunla adətə görə öz qızı kimi rəftar
etməlidir. [10]Əgər o adam ikinci arvad alırsa, birinci arvadını yemək və paltar
təminatından və arvadlıq hüququndan məhrum etməsin. [11]Əgər əri bu üç haqqı qadına
vermirsə, qoy bu qadın heç nə ödəmədən azad edilsin.

**Ölüm cəzasına məhkum olunanlar**

[12] Adam vurub öldürən şəxs öldürülməlidir. [13] Lakin o şəxs öldürmək qəsdində olmasa
və ölüm Mənim iznimlə olsa, o zaman onun üçün bir yer təyin edərəm ki, oraya pənah
gətirsin. [14]Bir adam başqa adamı qəsdən hiylə ilə öldürsə, o adamı hətta Mənim
qurbangahımdan götür ki, öldürülsün. [15]Atasını yaxud anasını döyən adam
öldürülməlidir. [16] İnsan oğurlayıb satan yaxud saxlayan adam öldürülməlidir. [17] Atasını
yaxud anasını söyən adam öldürülməlidir.

**Bədən xəsarəti**

[18]Adamlar münaqişə edəndə başqa adamın daşla yaxud yumruqla vurduğu bir adam
ölməyib yatağa düşərsə və [19]sonra yataqdan qalxıb əl ağacı ilə bayırda gəzərsə, onu
vuran adam cəzasız qalsın və yatdığı müddətin əvəzini ödəsin, sağalana qədər ona qayğı
göstərsin. [20]Bir adamın dəyənəklə vurduğu qulu yaxud qarabaşı zərbədən ölərsə, o adam
cəzalandırılmalıdır. [21]Əgər qul yaxud qarabaş bir-iki gün ərzində ölməsə, ağa
cəzalandırılmasın; çünki qul yaxud qarabaş ağanın əmlakıdır. [22]Adamlar dalaşanda bir
hamilə qadın ona dəyən zərbədən uşaq salarsa və başqa ziyan ona dəyməsə, o qadının
ərinin tələbi ilə təqsirkar adam hakimlərin təyin etdiyi məbləğdə cərimə ödəməlidir. [23]
Əgər qadına ziyan dəyibsə, təqsirkar adam can əvəzinə can, [24]göz əvəzinə göz, diş
əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq, [25]yanıq əvəzinə yanıq, yara əvəzinə yara,
zədə əvəzinə zədə ödəsin. [26]Ağa qulunun yaxud kənizinin gözünə vurub onu kor edərsə,

gözün əvəzinə onu azad etsin. [27]Əgər ağa qulunun yaxud kənizinin dişini sındırsa, dişin
əvəzinə qulunu azad etsin.

**Heyvan sahibinin məsuliyyəti**

[28]Mal-qaradan olan heyvan kişini yaxud qadını buynuzla vurub öldürərsə, heyvan
daşqalaq edilsin; onun əti yeyilməsin, heyvan sahibi isə günahsız sayılsın. [29]Lakin əgər
heyvan o vaxta qədər vurağan olub, sahibi isə bundan xəbərdar edilsə də, onun qarşısını
almasa və nəticədə heyvan kişini yaxud qadını öldürərsə, heyvan daşqalaq edilsin, sahibi
isə öldürülsün. [30]Əgər heyvanın sahibindən ödənmə pulu istənilirsə, o istənilən pulun
məbləğini ödəyib canının əvəzini ödəyə bilər. [31]Oğlanı ya qızı buynuzlayan heyvana
qarşı eyni hökm işlənsin. [32]Əgər heyvan qulu ya kənizi buynuzu ilə vursa, ağasına otuz
şekel gümüş verilsin, heyvan isə daşqalaq olsun. [33]Bir adam quyunu açıb ya da qazdığı
quyunun üstünü örtməsə və ora mal-qara yaxud eşşək düşsə, [34]quyunun sahibi zərəri
ödəsin; heyvanın dəyərini sahibinə versin, ölən heyvan isə o adama qalsın. [35]Bir adamın
mal-qarası başqasının mal-qarasını vurub öldürsə, sahiblər həm sağ qalan heyvanı satıb
dəyərini yarı bölməli, həm də ölü heyvanı yarı bölməlidirlər. [36]Amma heyvanın o vaxta
qədər vurağan olduğu məlum olanda onun qarşısını almayan sahibi heyvanın əvəzinə
heyvan verib zərəri ödəsin; ölən heyvan isə ona qalmalıdır.

# Çıxış 22

**Əmlak haqqında hökmlər**

[1]Bir adam mal-qara yaxud qoyun-keçidən oğurlayıb kəsər yaxud satarsa, qoy o adam
mal-qara əvəzinə beş heyvan, qoyun-keçi əvəzinə dörd heyvan verib zərəri ödəsin. [2]Əgər
gecə oğru birinin evinə girərkən yaxalanıb öldürülsə, qoy qanı batsın. [3]Əgər hadisə gün
doğandan sonra baş versə, qan tökən müqəssir sayılsın. Oğru zərəri ev yiyəsinə
ödəməlidir. Əgər oğrunun zərəri ödəməyə gücü çatmırsa, qoy oğurluğuna görə özü
satılsın. [4]Əgər oğurlanan mal-qara, eşşəklər ya qoyun-keçi oğrunun əlində diri tapılsa,
qoy oğru zərəri ikiqat ödəsin. [5]Bir adam öz tarlasında yaxud üzüm bağında otardığı
heyvanları başqa adamın tarlasına otlamağa buraxarsa, o adam öz tarlasının yaxud üzüm
bağının ən yaxşı barından zərəri ödəsin. [6]Alışan od kollara düşüb dərz, əkin yaxud tarlanı
məhv edərsə, yanğını yandıran adam zərəri ödəməlidir. [7]Bir adama saxlamağa verilən
gümüş yaxud əşya onun evindən oğurlanarsa və oğru tapılarsa, zərəri ikiqat ödəsin.
[8]Əgər oğru tapılmasa, evin sahibi Allahın hüzuruna yaxınlaşıb and içsin ki, başqa
adamın əmanətinə xəyanət etməyib. [9]Hər hansı itmiş bir əşya – mal-qara, eşşək, qoyun-
keçi, paltar barədə “bu mənimdir” deyən iki tərəfin mübahisəli işi Allahın hüzuruna
gətirilməlidir; Allahın haqsız çıxardığı adam o birisinə zərəri ikiqat ödəməlidir. [10]Bir
adama saxlamağa verilən başqa adamın eşşəyi, mal-qarası, qoyun-keçisi yaxud başqa bir
heyvanı heç kəs görmədən ölər, yaralanar yaxud aparılarsa [11]bu adamlar arasında Rəbbin
adına içilən and olsun ki, biri o birisinin əmanətinə xəyanət etməyib. Qoy heyvanın sahibi
bunu qəbul etsin, ona zərəri ödəməsin. [12]Əgər heyvan həmin adamdan oğurlanıbsa, onu
saxlayan adam zərəri sahibinə ödəsin. [13]Əgər heyvanı vəhşi heyvan parçalayıbsa, onu
saxlayan adam parçalanan heyvanı sübut kimi sahibinə gətirsin, zərərini isə ödəməsin.
[14]Bir adamın borc aldığı heyvan sahibinin yanında olmayanda yaralanar yaxud ölərsə, o

adam zərəri ödəməlidir. [15]Əgər heyvanın sahibi yanındadırsa, zərər ödənməməlidir. Əgər
heyvan muzdla tutulubsa, zərər muzd haqqına daxil edilir.

**Əxlaqi və dini hökmlər**

[16] Bir adam nişanlı olmayan bakirə qızı tovlayıb onunla yaxınlıq edərsə, qıza görə başlıq
verib onu özünə arvad etməlidir. [17]Əgər qızın atası onu o adama ərə verməyə qəti razı
deyilsə, o adam bakirə qızların başlığına müvafiq məbləğdə pul ödəsin. [18] Cadugər qadın
sağ qalmasın. [19] Heyvanlarla cinsi əlaqəyə girən hər kəs öldürülməlidir. [20] Rəbdən başqa
digər allahlara qurban gətirən adam tamamilə məhv olunsun. [21] Qərib adama nə
haqsızlıq, nə də zülm edin, çünki siz özünüz də Misir ölkəsində qərib idiniz. [22]Heç bir
dul qadına və yetimə əziyyət verməyin. [23]Əgər bunlardan birinə əziyyət versəniz və o
Mənə fəryad etsə, Mən hökmən fəryadını eşidəcəyəm. [24]Qəzəblənib sizi qılıncdan
keçirəcəyəm. Arvadlarınız dul, uşaqlarınız isə yetim qalacaq. [25] Xalqıma, yanında
yaşayan kasıba pul borc versəniz, onunla sələmçi kimi rəftar etməyin, üstünə sələm
qoymayın. [26] Əgər başqasının paltarını girov alırsınızsa, gün batandan əvvəl ona girovu
qaytarın. [27]Çünki bu paltar onun yeganə örtüyü və əyninin geyimidir. Bəs o adam
yatanda nə ilə üstünü örtsün? O Mənə fəryad edəndə səsini eşidəcəyəm, çünki Mən
lütfkaram. [28] Allaha küfr etmə və xalqın başçısına lənət etmə. [29]Öz məhsulunu və şirə
təqdimlərini Mənə gətirməyini gecikdirmə. İlk oğullarını Mənə həsr et. [30]Mal-qaranın və
qoyun-keçinin ilk balaları ilə də belə et: yeddi gün onları anaları ilə qoyub, səkkizinci
gün Mənə həsr et. [31] Mənim üçün müqəddəs xalq olun. Məhz buna görə də vəhşi
heyvanın çöldə parçaladığı heyvanın ətini yeməyin, onu itlərə atın.

# Çıxış 23

**Ədalət və vicdan**

[1]Boş xəbər gəzdirməyin. Yalançı şahid olmaq üçün haqsız adamla əlbir olmayın. [2]Şər iş
görən izdihama qoşulmayın. Məhkəmədə çoxları ilə birləşərək ədaləti təhrif edib yalançı
şahid olmayın. [3] Kasıba da məhkəmədə meylini salma. [4] Sən düşməninin azmış
buğasına, inəyinə yaxud eşşəyinə rast gəlsən, sahibinə qaytarmalısan. [5]Sənə nifrət edən
adamın eşşəyini yükü altında yıxılmış halda görəndə onu tərk etmə; ona kömək et ki, bu
yükdən azad olsun. [6] Möhtac olan adamın məhkəmə işində ona qarşı ədaləti təhrif etmə.
[7]Yalan işdən uzaq ol. Günahsıza və salehə ölüm hökmü vermə. Çünki Mən haqsıza
bəraət qazandırmayacağam. [8]Rüşvət alma, çünki rüşvət gözüaçıqları kor edər, salehlərin
sözlərini isə təhrif edər. [9] Qəribə zülm etmə. Siz də qəribliyi hiss etmisiniz, çünki özünüz
də Misir ölkəsində qərib idiniz.

**İstirahət vaxtları və bayramlar**

**(Çıx. 34:18-26; Qanun. 16:1-17)**

[10] Altı il torpağınızı əkin və məhsulunu yığın. [11]Yeddinci il ona əl dəyməyin ki,
xalqınızdan olan möhtaclar oradan yesin. Onlardan artıq qalanı isə çöl heyvanları yesin.
Üzüm və zeytun bağlarınızda da belə hərəkət edin. [12] Altı gün işlərinizi görün, yeddinci

gün isə istirahət edin ki, mal-qaranız və eşşəyiniz rahatlansın, evinizdə doğulan qullar və
qəriblər də dincəlsin. [13]Mənim sizə söylədiyim hər şeyə riayət edin. Başqa allahların
adını çəkməyin, qoy o adlar sizin ağzınızdan heç vaxt çıxmasın. [14]Mənə ildə üç dəfə
bayram edin: [15] Mayasız Çörək bayramını qeyd edin. Mən sizə əmr etdiyim kimi Aviv
ayında təyin olunmuş vaxt yeddi gün mayasız çörək yeyin. Çünki Misirdən o ayda
çıxdınız. Heç kəs önümə əliboş gəlməsin. [16] Tarladakı əkinin nübarı ilə Biçin bayramını
qeyd edin. İlin sonunda işinin bütün məhsulunu tarladan yığıb Yığım bayramını qeyd
edin. [17]İldə üç dəfə sizin bütün kişiləriniz Sahibləri Rəbbin hüzuruna gəlsinlər. [18]Mənə
gətirilən qurbanın qanını mayalı çörəklə təqdim etməyin. Bayram qurbanımın piyi səhərə
qədər qalmasın. [19] Torpağın nübarının ilk hissəsini Allahınız Rəbbin məbədinə gətirin.
Oğlağı anasının südündə bişirməyin.

### Vəd və nəsihətlər

[20]Budur, Mən yolda sizi qorumaq və hazırladığım yerə gətirmək üçün qarşınızda bir
Mələk göndərirəm. [21]Onun hüzurunda ehtiyatlı olun və səsinə qulaq asın. Ona qarşı
üsyan qaldırmayın, O, itaətsizliyinizi bağışlamaz, çünki Mənim adım onun üzərindədir.
[22]Əgər Onun səsinə qulaq asıb dediyimə əməl etsəniz, onda Mən sizin düşmənlərinizə
düşmən, yağılarınıza isə yağı olacağam. [23]Mələyim qarşınızda gedəcək və sizi
Emorluların, Xetlilərin, Perizlilərin, Kənanlıların, Xivlilərin və Yevusluların yanına
gətirəcək; Mən onları silib atacağam. [24]Onların allahlarına səcdə etməyin, onlara ibadət
etməyin və qaydalarına əməl etməyin. O allahları dağıdıb yox edin, onların daş
sütunlarını parça-parça etməlisiniz. [25]Siz isə Allahınız Rəbbə xidmət edin, O da
çörəyinizə və suyunuza bərəkət verəcək; sizin daxilinizdən xəstəliyi yox edəcəyəm.
[26]Ölkənizdə nə uşaq salan, nə də sonsuz qadın olmayacaq. Ömrünüzü də uzun edəcəyəm.
[27]Öz dəhşətimi qarşınızca göndərirəm. Sizin aralarına getdiyiniz bütün xalqlara qarışıqlıq
salacağam və bütün düşmənlərinizin dönüb sizdən qaçmasına bais olacağam.
[28]Eşşəkarısını da qarşınızca göndərəcəyəm, o da Xivliləri, Kənanlıları və Xetliləri
önünüzdən qovacaq. [29]Lakin bir il ərzində onları önünüzdən qovmayacağam ki, ölkə
viranə qalmasın və çöl heyvanları çoxalıb sizin üstünüzə daraşmasın. [30]Yavaş-yavaş
onları önünüzdən o vaxtacan qovacağam ki, siz törəyib çoxalaraq ölkənin sahibi
olacaqsınız. [31]Qırmızı dənizdən Filişt dənizinə qədər, səhradan Fərat çayına qədər
sərhədlərinizi çəkəcəyəm. Ölkənin sakinlərini sizə təslim edəcəyəm, siz isə onları
yanınızdan qovarsınız. [32]Nə onlarla, nə də allahları ilə əhd kəsin. [33]Qoymayın ki, onlar
ölkənizdə yaşasınlar və sizin Mənə qarşı günah edərək onların allahlarına ibadət
etməyinizə bais olsunlar. Bu sizə tələ olacaq».

# Çıxış 24

### Allahla İsrail arasında əhdin bağlanması

[1]Rəbb Musaya dedi: «Sən, Harun, Nadav, Avihu və İsrail ağsaqqallarından yetmiş nəfər
Rəbbin yanına çıxın. Uzaqdan səcdə edin. [2]Sonra yalnız sən, ey Musa, Rəbbin hüzuruna
yaxınlaş, o biriləri yaxınlaşmasınlar. Xalq isə səninlə buraya çıxmasın». [3]Musa gəlib
Rəbbin bütün sözlərini və hökmlərini xalqa nəql etdi. Bütün xalq bir səslə cavab verib
dedi: «Rəbbin söylədiyi sözlərin hamısına əməl edəcəyik». [4]Musa Rəbbin bütün sözlərini

yazdı. O, səhər erkən durub dağın ətəyində qurbangah və İsrailin on iki qəbiləsinə görə
on iki sütun qurdu. [5]Sonra Musa İsrailin cavanlarına Rəbbin önündə yandırma qurbanları
və ünsiyyət qurbanları olaraq buğalar kəsdirdi. [6]Musa heyvanların qanının yarısını
götürüb ləyənlərə tökdü. Qanın o biri yarısını isə qurbangahın üstünə səpdi. [7]O, əhd
kitabını əlinə alıb xalqa ucadan oxudu və onlar dedilər: «Rəbbin söylədiyi bütün sözlərə
əməl edib qulaq asacağıq!» [8] Sonra Musa qanı götürüb xalqın üstünə səpərək dedi:
«Budur bütün bu sözlərə görə Rəbbin sizinlə kəsdiyi əhdin qanı». [9]Bunu edib Musa
Harun, Nadav, Avihu və İsrail ağsaqqallarından yetmiş nəfərlə birgə çıxıb, [10]İsrailin
Allahını gördülər. Onun ayaqları altında göy yaqutdan döşəməyə bənzər, səmanın özü
kimi aydın bir şey var idi. [11]Allah İsrailin başçılarına əl qaldırmadı; onlar Allahı gördülər
və yeyib-içdilər. [12]Rəbb Musaya dedi: «Mənim yanıma dağa çıx və orada dur; xalqı
öyrətmək üçün qanunu və əmrləri yazdığım daş lövhələri sənə verim». [13]Musa köməkçisi
Yeşua ilə Allahın dağına çıxmaq üçün qalxdı. [14]Ağsaqqallara isə dedi: «Biz geri
qayıdanadək burada gözləyin. Budur, Harun və Xur yanınızdadır; kimin nə çətin işi
varsa, onların yanına gedə bilər». [15]Musa bunu deyəndən sonra dağa çıxdı. Bulud dağı
bürüdü. [16]Rəbbin izzəti Sina dağının üstündə məskən saldı. Bulud onu altı gün bürüdü.
Yeddinci gün Rəbb Musanı buludun içindən çağırdı. [17]Rəbbin izzəti İsrail övladlarının
gözündə dağın başında yandırıb-yaxan alov kimi görünürdü. [18] Musa buludun içinə girib
dağa çıxdı və qırx gün-qırx gecə dağda qaldı.

# Çıxış 25

**Müqəddəs məskən üçün ianələr**

**(Çıx. 35:4-9)**

[1]Rəbb Musaya dedi: [2]«Mənə ianələr gətirmək barədə İsrail övladlarına belə söylə: könlü
istəyən hər bir adamdan ianəni qəbul edin. [3]Onlardan qəbul edəcəyiniz ianələr budur:
qızıl, gümüş, tunc, [4]bənövşəyi, tünd qırmızı və al rəngli iplik, incə kətan, keçi yunu,
[5]qırmızı boyanmış qoç dəriləri, suiti dəriləri, əbrişim ağacı, [6]çıraq üçün zeytun yağı,
məsh yağı və ətirli buxur üçün ətriyyatlar, [7]efodla döşlüyün üstünə taxılan damarlı əqiq
və sağanaq daşları. [8]Mənim üçün Müqəddəs məkan düzəltsinlər ki, aralarında
məskunlaşım. [9]Mənim məskənimi və onun bütün avadanlığını göstərdiyim nümunələrə
görə düzəldin.

**Əhd sandığı**

**(Çıx. 37:1-9)**

[10]Qoy əbrişim ağacından sandıq düzəltsinlər: uzunluğu iki qulac yarım, eni qulac yarım,
hündürlüyü qulac yarım olsun. [11]Onu içəridən və bayırdan xalis qızılla ört, ətrafına qızıl
zolaq qoy. [12]Sandıq üçün dörd tökmə qızıl halqa düzəlt və onları onun dörd ayağına, iki
halqanı bir yanına, iki halqanı isə o biri yanına bərkit. [13]Əbrişim ağacından şüvüllər
düzəlt və üzərini qızılla ört. [14]Sandığı daşımaq üçün şüvülləri sandığın yanlarındakı
halqalara keçir. [15]Şüvüllər sandığın halqalarında qalıb oradan ayrılmasın. [16]Sənə
verəcəyim şəhadət lövhələrini sandığın içinə qoy. [17]Xalis qızıldan kəffarə qapağını

düzəlt. Qoy uzunluğu iki qulac yarım, eni isə qulac yarım olsun. [18]Kəffarə qapağının hər
iki ucu üçün yastılanmış qızıldan iki keruv düzəlt. [19]Bir keruv qapağın bir ucunda, o
birisi isə o biri ucunda olaraq qapağın iki ucunda olan keruvlar düzəlt ki, onunla bir
hissədən olsun. [20]Keruvlar yuxarıya açılmış qanadları ilə kəffarə qapağını örtsünlər.
Keruvların üzləri bir-birinə qarşı qapağa doğru olsun. [21]Kəffarə qapağını sandığın üstünə
qoy; sənə verəcəyim şəhadət lövhələrini isə sandığın içinə qoy. [22]Orada kəffarə
qapağının üzərində, Şəhadət sandığının üstündəki iki keruv arasında səninlə görüşəcəyəm
və İsrail övladları üçün sənə əmr edəcəyim hər şeyi söyləyəcəyəm.

**Təqdis çörəkləri üçün masanın quruluşu**

**(Çıx. 37:10-16)**

[23]Əbrişim ağacından bir masa düzəlt: uzunluğu iki qulac, eni bir qulac, hündürlüyü isə
qulac yarım olsun. [24]Onu xalis qızılla ört. Ətrafına qızıl zolaq qoy. [25]Ətrafında eni bir
ovuc olan yan lövhələri düzəlt. Yan lövhələrin ətrafına da qızıl zolaq qoy. [26]Masa üçün
dörd qızıl halqa düzəlt, halqaları onun dörd küncünə, dörd ayağına bərkit. [27]Halqalar yan
lövhələrə yaxın olaraq masanı aparan şüvüllərin keçdiyi yerlər olsun. [28]Şüvülləri əbrişim
ağacından düzəlt və onları qızılla ört; masa onların vasitəsi ilə aparılsın. [29]Masa üçün
xalis qızıldan sinilər və nimçələr, içmə təqdimlərini tökmək üçün dolçalar və piyalələr
düzəlt. [30] Daima Mənim hüzurumda masanın üstünə təqdis çörəkləri qoy.

**Qızıl çıraqdan**

**(Çıx. 37:17-24)**

[31]Xalis qızıldan bir çıraqdan düzəlt. Bu çıraqdan yastılanmış qızıldan olmalıdır. Altlığı,
gövdəsi, kasacıqları, qönçələri və gülləri onunla bir hissədən olsun. [32]Çıraqdanın
yanlarından altı budaq – onun bir yanından üç budaq, o biri yanından da üç budaq çıxsın.
[33]Hər bir budağında badam çiçəyinə bənzər üç kasacıq, qönçə və gül olsun. [34]Çıraqdanın
gövdəsində isə badam çiçəyinə bənzər dörd kasacıq, qönçə və gül olsun. [35]Çıraqdanın
gövdəsindən çıxan altı budağın bir cütünün altında bir qönçə, o biri cütünün altında bir
qönçə, o birinin də altında bir qönçə olsun. [36]Qönçələr və budaqlar onunla bir hissədən
ibarət olsun; hamısı eyni hissədən, yastılanmış xalis qızıldan olsun. [37]Onun üçün yeddi
çıraq düzəlt və çıraqları onun üstünə qoy ki, qabaq tərəfinə işıq salsın. [38]Maşaları və
xəkəndazları da xalis qızıldan olsun. [39]Çıraqdan və onun bütün avadanlığı bir talant xalis
qızıldan düzəldilsin. [40] Dağda sənə göstərilən nümunəyə görə bunların hamısını ehtiyatla
düzəlt.

# Çıxış 26

### Müqəddəs məskən

### (Çıx. 36:8-38)

1Müqəddəs məskəni on pərdədən düzəlt. Pərdələri nəfis toxunmuş incə kətandan,
bənövşəyi, tünd qırmızı və al rəngli iplikdən, üstünü isə keruvlar şəklində naxışla düzəlt.
2Hər pərdənin uzunluğu iyirmi səkkiz qulac, eni isə dörd qulac olsun. Qoy bütün pərdələr
bir ölçüdə olsun. 3Pərdələrdən beşi bir-birinə birləşdirilsin, digər beşi də bir-birinə
birləşdirilsin. 4Bir birləşmənin ucunda olan pərdənin kənarında bənövşəyi ilgəklər düzəlt,
o biri birləşmənin ucunda olan pərdənin kənarında da eyni şəkildə ilgəklər düzəlt. 5Bir
pərdəyə əlli ilgək, o biri birləşmədəki pərdənin kənarında onlara uyğun gələn əlli ilgək
düzəlt. 6Qızıldan əlli bənd düzəlt. Bəndlərlə pərdələri bərkit və çadırı birləşdir ki,
məskən bütöv olsun. 7Məskəni örtən çadır üçün keçi yunundan on bir ədəd pərdə düzəlt.
8Hər pərdənin uzunluğu otuz qulac, eni isə dörd qulac olsun. On bir pərdə bir ölçüdə
olsun. 9Beş pərdəni ayrıca və altı pərdəni ayrıca birləşdir. Altıncı pərdəni isə çadırın
qabaq tərəfindən qatla. 10Bir birləşmənin qıraq pərdəsinin kənarında əlli ilgək, o biri
birləşmənin qıraq pərdəsinin kənarında da əlli ilgək düzəlt. 11Tuncdan əlli bənd düzəlt;
bəndləri ilgəklərə tax və çadırı birləşdir ki, o bütöv olsun. 12Çadırın pərdələrindən artıq
qalan pərdənin yarısını məskənin arxa tərəfindən salla. 13Çadırın pərdələrinin
uzunluğunun hər iki ucunda artıq qalan bir qulac parça məskəni örtmək üçün onun hər iki
tərəfindən sallansın. 14Çadır üçün qırmızı boyanmış qoç dərilərindən bir pərdə və onun
üstündə suiti dərilərindən bir pərdə düzəlt. 15Müqəddəs məskən üçün əbrişim ağacından
dik duran çərçivələr düzəlt. 16Hər çərçivənin uzunluğu on qulac, eni isə qulac yarım
olsun. 17Hər çərçivənin üstündə iki bir-birinə bağlanan zivana olsun; məskənin bütün
çərçivələrini belə düzəlt. 18Məskənin cənub tərəfi üçün iyirmi çərçivə 19və onların altına
qoyulacaq qırx gümüş altlıq düzəlt; hər çərçivənin altında iki zivanası üçün iki altlıq
olsun. 20Məskənin şimal tərəfi üçün də iyirmi çərçivə 21və qırx gümüş altlıq, hər
çərçivənin altında iki altlıq olsun. 22Məskənin qərbə doğru arxası üçün altı çərçivə
düzəlt. 23Məskənin arxa küncləri üçün isə iki çərçivə düzəlt ki, 24bunlar aşağıda birləşib
yuxarıda bir halqaya taxılsın; hər iki künc üçün elə iki çərçivə olsun. 25Bu səkkiz çərçivə
üçün on altı gümüş altlıq, hər çərçivənin altında iki altlıq olsun. 26Əbrişim ağacından
şüvüllər düzəlt: məskənin hər iki tərəfindəki çərçivələri üçün beş şüvül, 27məskənin
qərbə doğru arxa tərəfdəki çərçivələri üçün də beş şüvül olsun. 28Orta şüvül çərçivələrin
ortasından bir ucdan o biri uca qədər uzansın. 29Çərçivələri qızılla ört; şüvüllərin keçdiyi
halqaları qızıldan düzəlt; şüvülləri də qızılla ört. 30Dağda sənə göstərilən layihəyə görə
müqəddəs məskəni qur. 31Pərdəni bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və nəfis
toxunmuş incə kətandan, üstünü isə keruvlar şəklində naxışla düzəlt. 32Onu dörd dirək
üstündə as; hər dirək qızılla örtülmüş əbrişim ağacından olsun. Üstündə qızıl qarmaqları
olsun və dörd gümüş altlıq üstündə dursun. 33 Pərdəni bəndlərdən as və Şəhadət
sandığını oraya, pərdənin arxasına gətir. Bu pərdə Müqəddəs yerlə Ən Müqəddəs yeri
ayırsın. 34Ən Müqəddəs yerdə Şəhadət sandığının üstünə kəffarə qapağını tax. 35Masanı
pərdənin bayır tərəfinə, çıraqdanı masanın qarşısına – məskənin cənub tərəfinə, masanı
isə şimal tərəfinə qoy. 36Hüzur çadırının girişi üçün arakəsməni bənövşəyi, tünd qırmızı,
al rəngli iplikdən və nəfis toxunmuş incə kətandan, naxış tikməsi ilə düzəlt. 37Bu

arakəsmə üçün də əbrişim ağacından beş dirək düzəlt və üstünü qızılla ört; üstündə qızıl qarmaqlar olsun və onlar üçün tuncdan beş altlıq tök.

# Çıxış 27

### Yandırma qurbanı üçün qurbangah

### (Çıx. 38:1-7)

[1]Qurbangahı əbrişim ağacından düzəlt. Qoy dördbucaq şəklində olub uzunluğu beş qulac,
eni də beş qulac, hündürlüyü isə üç qulac olsun. [2]Qurbangahın dörd küncündən onunla
bir hissədən olan dörd buynuz düzəlt. Qurbangahın üstünü tuncla ört. [3]Oranın kül
qablarını, kürəklərini, ləyənlərini, çəngəllərini, xəkəndazlarını – bütün avadanlığını
tuncdan düzəlt. [4]Qurbangah üçün tuncdan torlu şəbəkə düzəlt. Torun dörd bucağında
tuncdan dörd halqa düzəlt. [5]Onu qurbangahın kənarından aşağıya qoy ki, şəbəkə onun
yarısına qədər yetişsin. [6]Qurbangah üçün əbrişim ağacından şüvüllər düzəlt və üstünü
tuncla ört. [7]Şüvülləri halqalara tax ki, onlar qurbangahı aparan zaman onun hər iki
yanında olsun. [8]Qurbangahın içi boş və taxtadan olsun. Dağda sənə göstərdiyim kimi
onu düzəlt.

### Müqəddəs məskənin həyəti

### (Çıx. 38:9-20)

[9]Müqəddəs məskənin həyətini düzəlt. Həyətin cənub tərəfində bir tərəf üçün uzunluğu
yüz qulac olan pərdələr nəfis toxunmuş incə kətandan olsun. [10]Onların iyirmi dirəyi və
iyirmi altlığı tuncdan, dirəklərin qarmaqları və bəndləri isə gümüşdən olsun. [11]Şimal
tərəfi üçün də uzunluğu yüz qulac pərdə olsun; onların iyirmi dirəyi və iyirmi altlığı
tuncdan, dirəklərin qarmaqları və bəndləri isə gümüşdən olsun. [12]Qərb tərəfində
uzunluğu həyətin eni qədər əlli qulac pərdələr olsun. Onlar üçün on dirək və on altlıq
düzəlt. [13]Şərq tərəfində də həyətin eni əlli qulac olsun. [14]Darvazanın bir tərəfi üçün üç
dirəyi və üç altlığı olan uzunluğu on beş qulac pərdələr olsun. [15]O biri tərəf üçün də üç
dirəyi və üç altlığı olan uzunluğu on beş qulac pərdələr olsun. [16]Həyətin darvazası üçün
uzunluğu iyirmi qulac olan bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və nəfis toxunmuş
incə kətandan naxış tikməli arakəsmə, onun dörd dirəyi və dörd altlığı olsun. [17]Həyətin
bütün ətraf dirəkləri gümüşlə bəndlənsin; onların gümüş qarmaqları və tunc altlıqları
olsun. [18]Həyətin uzunluğu yüz qulac və eni hər yerdə əlli qulac olsun; nəfis toxunmuş
incə kətandan olan pərdənin hündürlüyü isə beş qulac, altlıqları da tuncdan olsun.
[19]Müqəddəs məskənin ibadəti üçün işlənən bütün avadanlığı, onun bütün payaları kimi
həyətin bütün payaları da tuncdan olsun.

**Kahinliyin təyin olunması**

**(Lev. 24:1-4)**

[20]Sən İsrail övladlarına əmr et ki, işıq yandırmaq üçün sənə zeytundan çəkilmiş xalis yağ
gətirsinlər. Bu yağdan çıraqlar daima [21]Hüzur çadırında, Şəhadət sandığının qarşısındakı
pərdənin bayır tərəfində yansın. Harunla oğulları onu hər axşam Rəbbin hüzurunda
yandırıb səhərə qədər nəzarət etsinlər. Qoy bu, nəsildən-nəslə İsrail övladları üçün əbədi
qayda olsun.

# Çıxış 28

**Kahinlərin geyimləri**

**(Çıx. 39:1-7)**

[1]Sən isə qardaşın Harunu və onun oğulları Nadavı, Avihunu, Eleazarı və İtamarı İsrail
övladlarının arasından yanına gətir ki, onlar Mənə kahinlik etsin. [2]Qardaşın Haruna izzət
və gözəllik üçün müqəddəs geyimlər hazırla. [3]Sən də hikmət ruhu ilə doldurduğum bütün
məharətli ustalara Harunun təqdis olunması üçün ona geyimlərin hazırlamasını tapşır ki,
o Mənə kahinlik etsin. [4]Onların hazırlayacağı geyimlər bunlardır: döşlük, efod, üst
cübbə, dama-dama xirqə, çalma və qurşaq. Bu müqəddəs geyimləri qardaşın Haruna və
oğullarına hazırlasınlar ki, Mənə kahinlik etsinlər. [5]Qoy geyimləri hazırlayanlar qızıl,
bənövşəyi, tünd qırmızı, al rəngli iplik və incə kətan götürsünlər. [6]Efodu qızıldan,
bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və nəfis toxunmuş incə kətandan naxışla
düzəltsinlər. [7]Hər iki ucunu bir-birinə bağlayan iki çiyinlik olsun ki, o bərkidilsin.
[8]Efodun üstündəki kəmər eyni hissədən olsun. O da qızıldan, bənövşəyi, tünd qırmızı və
al rəngli iplik və nəfis toxunmuş incə kətandan olsun. [9]İki ədəd damarlı əqiq daşı götür
və üstündə İsrailin oğullarının adlarını həkk et. [10]Onların doğulma sırası ilə bir daşın
üstündə altı ad, o birisinin üstündə qalan altı adı, [11]həkkakın işi olan möhür oyması kimi
iki daş üstündə İsrailin oğullarının adlarını həkk et. Bunları hörmə qızıl sağanaqlara salıb,
[12]bu iki daşı efodun çiyinliklərinə tax. Bunlar İsrailin oğullarının xatirə daşlarıdır; Harun
onların adlarını Rəbbin önündə iki çiynində xatirə kimi gəzdirəcək. [13]Hörmə qızıldan
sağanaqlar düzəlt, [14]xalis qızıldan iki ipə bənzər burma zəncir düzəlt; burma zəncirləri
sağanaqlara tax.

**Döşlük**

**(Çıx. 39:8-21)**

[15]Hökm döşlüyünü efod kimi naxışlı düzəlt. Onu qızıldan, bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə kətandan düzəlt. [16]Döşlük ikiqat, dördbucaq
şəklində olub uzunluğu bir qarış, eni də bir qarış olsun. [17]Üstündəki bir çərçivəyə dörd
sıra daş tax. Birinci sıra yaqut, topaz, zümrüd [18]ikinci sıra firuzə, göy yaqut və almaz,
[19]üçüncü sıra sirkon, əqiq və ametist, [20]dördüncü sıra sarı yaqut, damarlı əqiq və yəşəm
daşı olsun. Bu daşlar hörmə qızıl sağanaqlara taxılsın. [21]Daşlar İsrailin oğullarının

adlarına görə on iki dənə olsun; hər daş on iki qəbilədən birinin adının oyma möhürü
olsun. [22]Döşlük üçün xalis qızıldan ipəbənzər burma zəncirlər qayır. [23]Döşlük üçün iki
qızıl halqa düzəlt və onları döşlüyün iki ucuna tax. [24]İki qızıl ipi döşlüyün uclarındakı iki
halqaya tax. [25]İplərin o biri uclarını iki hörmə sağanağa taxıb efodun çiyinliklərinin
qabaq tərəfinə bağla. [26]Yenə də iki qızıl halqa düzəlt və onları döşlüyün iki ucuna, efodla
yanaşı iç qatına tax. [27]Digər iki qızıl halqa düzəlt və onu efodun çiyinliklərinin qabaq
tərəfinə, aşağıya, efodun kəməri ilə birləşmə üzərinə bərkit. [28]Döşlük halqaları ilə efodun
halqalarına bənövşəyi qaytanla bağlanıb efodun kəmərinin üzərinə bərkidilsin ki, döşlük
efoddan sallanmasın. [29]Harun Müqəddəs yerə daxil olduğu zaman Rəbbin önündə daima
xatirə olaraq İsrailin oğullarının adlarını hökm döşlüyündə, ürəyinin üstündə daşıyacaq.
[30]Urim və Tummimi də hökm döşlüyünə qoy ki, Rəbbin hüzuruna daxil olduğu zaman
onlar da ürəyinin üstündə olsun. Beləcə Harun İsrail övladlarının hökmünü Rəbbin
hüzurunda daima ürəyinin üstündə daşıyacaq.

### Kahinlərin digər geyimləri

**(Çıx. 39:22-31)**

[31]Efodun cübbəsini büsbütün bənövşəyi iplikdən tik. [32]Ortasında baş keçirmək üçün yer
olsun. Onun kənarında cırılmamaq üçün yaxa toxunsun. [33]Cübbənin ətəyinin ətrafına
bənövşəyi, tünd qırmızı və al rəngli iplikdən narlar və zınqırovlar düz: [34]cübbənin ətəyi
boyunca ətrafında qızıl zınqırov və nar sıra ilə düzülsün. [35]Qoy cübbə Harun xidmət
etdiyi zaman əynində olsun. Verdiyi səs də onun Müqəddəs yerə – Rəbbin hüzuruna
girib-çıxdığı zaman eşidilsin ki, o ölməsin. [36]Xalis qızıldan bir lövhəcik düzəlt və onun
üzərində möhür oyması olaraq “Rəbbə həsr edilmiş” yazısını həkk et. [37]Onu bənövşəyi
qaytanla çalmanın üstünə – qabaq tərəfinə tik. [38]Beləcə lövhəcik Harunun alnının
üstündə olsun. İsrail övladlarının təqdis etdikləri bütün müqəddəs hədiyyələrin Rəbbin
qarşısında məqbul olub-olmamasının məsuliyyətini Harun daşıyacaq. Buna görə də qoy
lövhəcik həmişə Harunun alnında olsun. [39]Xirqəni incə kətandan dama-dama hör.
Çalmanı da incə kətandan düzəlt. Qurşağın üzərinə naxış tikib düzəlt. [40]Harunun
oğullarına izzət və gözəllik üçün xirqələr, qurşaqlar və papaqlar düzəlt. [41]Bunları
qardaşın Harunla oğullarına geyindirib onları məsh et, vəzifəyə qoy və Mənə kahinlik
etmək üçün təqdis et. [42]Beldən buda qədər lüt bədənlərini örtən kətan alt paltarları tik.
[43]Bunları Harunla oğulları Müqəddəs yerdə xidmət etmək üçün Hüzur çadırına daxil
olanda yaxud qurbangaha yaxınlaşanda cəza çəkib ölməmək üçün geyəcəklər. Bu,
Harunla övladlarına əbədi qayda olsun.

# Çıxış 29

### Kahinliyin təqdis olunması

**(Lev. 8:1-36)**

[1]Mənə kahinlik etmək üçün onları bu qaydada təqdis et. Qüsursuz bir buğa və iki qoç
götür. [2]Mayasız çörəkləri, zeytun yağı ilə yoğrulmuş mayasız kökələri və üstünə zeytun
yağı sürtülmüş mayasız qoğalları narın buğda unundan hazırla. [3]Onları bir səbətin içinə

qoy, buğa və iki qoçla birgə təqdim et. [4]Sonra Harunla oğullarını Hüzur çadırının girişinə
gətir və onları su ilə yuyundur. [5]Geyimlərini götürüb Harunun əyninə xirqəni, efod
cübbəsini, efodu və döşlüyü geyindir və efodun kəmərini belinə bağla. [6]Onun başına
çalmanı, çalmaya da müqəddəslik tacını qoy. [7]Məsh yağını götürüb Harunun başına tök
və onu məsh et. [8]Sonra oğullarını gətir və onlara xirqələr geyindir. [9]Haruna və onun
oğullarının belinə qurşaq bağla və başlarına papaq qoy. Əbədi qaydaya görə kahinlik
onların olsun. Beləcə Harunla oğullarını vəzifəyə qoy. [10]Sonra Hüzur çadırının önünə
buğanı gətir. Qoy Harunla oğulları əllərini buğanın başına qoysunlar. [11]Buğanı Rəbbin
önündə, Hüzur çadırının girişində kəs. [12]Buğanın qanından götür və barmağınla
qurbangahın buynuzlarına çək. Qanın qalan hissəsini isə qurbangahın altlığına tök.
[13]Heyvanın içalatını örtən bütün piyi, qaraciyərin quyruğa bənzər hissəsini, hər iki
böyrəyini və üstündəki piyi qurbangahda tüstülədib yandır. [14]Buğanın ətini, dərisini və
bağırsağını düşərgənin kənarında yandır. Bu, günah qurbanıdır. [15]Bir qoç da götür; qoy
Harunla oğulları əllərini qoçun başına qoysunlar. [16]Sonra qoçu kəs, qanını götür və onu
qurbangahın hər tərəfinə səp. [17]Qoçu parça-parça doğra, içalatını və budlarını yuyub,
başının və tikələrinin üstünə qoy. [18] Bütün qoçu qurbangahda tüstülədib yandır. Bu,
Rəbb üçün yandırma qurbanı, Onun xoşuna gələn ətir – yandırma təqdimidir. [19]Sən o biri
qoçu da götür, Harunla oğulları əllərini onun başına qoysunlar. [20]Sonra qoçu kəs;
qanından bir az götürüb Harunun sağ qulağının mərcəyinə, oğullarının sağ qulaq
mərcəklərinə, onların sağ əllərinin və sağ ayaqlarının baş barmaqlarına çək. Qoçun qanını
qurbangahın hər tərəfinə səp. [21]Qurbangahdakı qandan və məsh yağından götürüb
Haruna və onun geyimlərinə, oğullarına və onların geyimlərinə çilə. Beləcə Harun və
onun geyimləri, oğulları və onların geyimləri təqdis olunsun. [22]Sonra qoçun piyini,
quyruğunu, içalatını örtən piyi, qaraciyərinin quyruğa bənzər hissəsini, hər iki böyrəyini,
üstündəki piyi və sağ budunu götür. Çünki bu təqdis qoçudur. [23]Rəbbin önündə olan
mayasız çörəklər səbətindən bir yastı çörək kökəsi, bir zeytun yağı ilə yoğrulmuş çörək
kökəsi və bir qoğal götür. [24]Bunların hamısını Rəbbin hüzurunda yellədərək təqdim
etmək üçün Harunun və onun oğullarının əllərinə qoy. [25]Sonra bu şeyləri əllərindən alıb
qurbangahda yandırma qurbanı ilə tüstülədib yandır. Bu, Rəbbin hüzurunda Onun xoşuna
gələn ətir – yandırma təqdimidir. [26]Harunun təqdis qurbanı olan qoçdan döş ətini götürüb
Rəbbin hüzurunda yellədərək təqdim et. Bu sənin payındır. [27]Harunla oğullarının təqdis
qurbanı olan qoçdan yellədilən döş ətini və qaldırılan budu təqdis et. [28]Bu qaldırılan pay
Harunla övladlarının İsraillilərdən gələn əbədi pay olsun. Bu da İsrail övladlarının
ünsiyyət qurbanlarından Rəbbə qaldırılan pay olsun. [29]Harunun müqəddəs geyimləri
özündən sonra oğullarına qalsın ki, onları geyərək məsh olunub vəzifəyə qoyulsunlar.
[30]Onun yerinə kahin olub Müqəddəs yerdə xidmət etmək üçün Hüzur çadırına daxil olan
oğlu yeddi gün o geyimləri geysin. [31]Təqdis qurbanı olan qoçun ətini götür və müqəddəs
bir yerdə qaynat. [32]Harunla oğulları o qoçun ətini və səbətdə olan çörəyi Hüzur çadırının
girişində yesinlər. [33]Özlərini vəzifəyə qoyub təqdis edəndə günahlarının kəffarə olması
üçün istifadə edilən bu şeyləri onlar yesin; amma yad adamlar bunları yeməsin, çünki bu
şeylər müqəddəsdir. [34]Əgər təqdis qurbanının ətindən və çörəkdən səhərə qədər qalarsa,
qalığını yandır; bu şeylər yeyilməz, çünki müqəddəsdir. [35]Mən sənə necə əmr etmişəmsə,
o cür də Harunla oğulları üçün et. Onların vəzifəyə keçmə vaxtını yeddi gün davam etdir.
[36]Hər gün kəffarə üçün günah qurbanı olaraq bir buğa gətir. Qurbangah üçün kəffarə
edərək onu pak et və təqdis etmək üçün məsh et. [37]Yeddi gün ərzində qurbangah üçün

kəffarə edərək onu təqdis et. Sonra qurbangah ən müqəddəs sayılacaq və ona toxunan hər
şey müqəddəs olacaq.

### Gündəlik təqdimlər

**(Say. 28:1-8)**

[38]Daimi olaraq hər gün qurbangah üzərində birillik iki toğlu gətir. [39]Toğlunun birini
səhər, digərini isə axşam təqdim et. [40]Birinci toğlu ilə birlikdə dörddə bir hin zeytun yağı
ilə yoğrulmuş onda bir efa narın un və içmə təqdimi olaraq dörddə bir hin şərab gətir.
[41]Axşamçağı təqdim etdiyin o biri toğlu ilə səhərki kimi taxıl təqdimi və içmə təqdimi
gətir. Bu, Rəbbin xoşuna gələn ətirli təqdimdir. [42]Bu sizin üçün nəsildən-nəslə Hüzur
çadırının girişində, Rəbbin önündə daimi yandırma qurbanı olacaq. Mən orada sizinlə
görüşüb, səninlə danışacağam. [43]Orada Mən İsrail övladları ilə görüşəcəyəm; Hüzur
çadırı Mənim izzətimlə təqdis olunacaq. [44]Mən Hüzur çadırını və qurbangahı təqdis
edəcəyəm; Harunla oğullarını da təqdis edəcəyəm ki, Mənə kahinlik etsinlər. [45]İsrail
övladları arasında məskunlaşacağam və onların Allahı olacağam. [46]Onlar da biləcəklər
ki, aralarında məskunlaşmaq üçün onları Misir torpağından çıxaran Allahı Rəbb Mənəm,
onların Allahı Rəbb Mənəm.

# Çıxış 30

### Buxur yandırmaq üçün qurbangah

**(Çıx. 37:25-28)**

[1]Əbrişim ağacından buxur yandırmaq üçün qurbangah düzəlt. [2]Qoy uzunluğu bir qulac
eni də bir qulac, hündürlüyü isə iki qulac olsun, buynuzları onunla bir hissədən olsun.
[3]Onun üzərini, hər yanını və buynuzlarını xalis qızılla ört və ətrafına qızıl zolaq qoy.
[4]Onun üçün iki qızıl halqa düzəlt; qarşı-qarşıya olan iki yanda, zolağın altında düzəlt. Bu
onu aparan şüvüllərin keçdiyi yerlər olsun. [5]Şüvülləri əbrişim ağacından düzəlt və qızılla
ört. [6]Bu qurbangahı Şəhadət sandığının qarşısında olan pərdənin önünə – Mənim səninlə
görüşəcəyim yerə, kəffarə qapağının önünə qoy. [7]Harun qurbangahda ətirli buxur
yandırsın. Həm səhər çıraqları hazırladığı zaman, [8]həm də axşamçağı çıraqları yandırdığı
zaman onu yandırsın. Bu sizin üçün nəsildən-nəslə Rəbbin önündə daimi buxur
təqdimidir. [9]Onun üstündə nə yad buxur, nə yandırma qurbanı, nə də taxıl təqdimi
gətirin; içmə təqdimi də tökməyin. [10]İldə bir dəfə Harun günah üçün kəffarə qurbanının
qanını qurbangahın buynuzlarına çəkərək qurbangah üçün kəffarə etsin. Nəsildən-nəslə,
ildən-ilə bir dəfə belə etsin. Qurbangah Rəbb üçün ən müqəddəsdir».

### Siyahıyaalma pulu

[11]Rəbb Musaya belə dedi: [12]«İsrail övladlarını siyahıya aldığın zaman sayılan hər bir
adam öz həyatının əvəzini Rəbbə versin ki, sayıldıqlarına görə aralarında bəla olmasın. [13]
Sayılmış adamlara daxil olan hər kəs yarım şekel gümüş versin. Bu, iyirmi geradan ibarət
olan Müqəddəs yerdəki şekelə görə sayılsın. Bu yarım şekel Rəbbin payıdır. [14]İyirmi və

ondan yuxarı yaşda sayılmış adamlar arasından hər bir kişi bu payı Rəbbə versin.
[15]Həyatlarınızı kəffarə etmək üçün Rəbbin payını verəndə varlı yarım şekeldən çox,
kasıb yarım şekeldən əskik verməsin. [16]Bu kəffarə pulunu İsrail övladlarından götürüb
Hüzur çadırının ibadəti üçün təyin et. Bu, həyatlarınızı kəffarə etmək üçün Rəbbin
önündə İsrail övladlarının xatirəsi olacaq».

**Tunc ləyən**

[17]Rəbb Musaya belə dedi: [18]«Yuyunmaq üçün bir tunc ləyən düzəlt. Qoy altlığı da
tuncdan olsun. Onu Hüzur çadırı ilə qurbangahın arasına qoy, içini də su ilə doldur ki,
[19]Harunla oğulları əl-ayaqlarını o su ilə yusunlar. [20]Onlar Hüzur çadırına daxil olduğu
zaman su ilə yuyunsunlar, yoxsa öləcəklər. Xidmət etmək və Rəbb üçün yandırma
təqdimi tüstülədib yandırmaq üçün qurbangaha yaxınlaşanda da [21]əl-ayaqlarını yusunlar,
yoxsa öləcəklər. Bu, Harunla övladları üçün nəsildən-nəslə əbədi qayda olsun».

**Məsh üçün yağ**

[22] Rəbb Musaya dedi: [23]«Bu gözəl ətriyyatlardan götür: beş yüz şekel duru mirra, onun
yarısı qədər iki yüz əlli şekel ətirli darçın, iki yüz əlli şekel ətirli qamış [24]və beş yüz şekel
Çin darçını, hər şey Müqəddəs yerdəki şekelə görə sayılsın; həm də bir hin zeytun yağı.
[25]Bunların hamısından müqəddəs məsh yağı hazırla; bu ətriyyatçının tərtib etdiyi
ətriyyat, müqəddəs məsh yağı olacaq. [26]Həmin yağla bunları məsh et: Hüzur çadırını,
Şəhadət sandığını, [27]masanı və onun bütün ləvazimatını, çıraqdanı və onun əşyalarını,
buxur qurbangahını, [28]yandırma qurbanları üçün qurulan qurbangahı və onun bütün
avadanlığını, tunc ləyəni və onun altlığını. [29]Beləcə bu şeyləri təqdis et ki, ən müqəddəs
olsunlar; onlara toxunan hər şey müqəddəs olacaq. [30]Harunla oğullarını da məsh edərək
təqdis et ki, Mənə kahinlik etsinlər. [31]İsrail övladlarına belə de: “Bu sizin üçün nəsildən-
nəslə Mənə müqəddəs məsh yağı olacaq. [32]Bu yağ insan bədənlərinə tökülməsin.
Tərkibinə görə ona bənzər heç nə hazırlamayın. Bu yağ müqəddəsdir, onu müqəddəs
sayın. [33]Ona bənzərini düzəldən yaxud onu kənar şəxsin üzərinə tökən hər kəs xalqı
arasından qovulsun”».

**Buxur**

[34]Sonra Rəbb Musaya dedi: «Bu ətirli maddələrdən götür: balzam, onika, ilan kölgəsi,
xalis kündür; hər şey eyni miqdarda olsun. [35]Bunların hamısından buxur hazırla;
ətriyyatçının düzəltdiyi bu qatışıq duzlanmış, təmiz və müqəddəs olsun. [36]Ondan bir
qədərini narın döy və Mənim səninlə görüşəcəyim yer olan Hüzur çadırında Şəhadət
sandığının önünə qoy. Bu sizin üçün ən müqəddəs olsun. [37]Hazırladığın buxurun
tərkibinə görə özünüz üçün buxur hazırlamayın; bunu Rəbb üçün müqəddəs sayın. [38]Ona
bənzər olan ətir vurmaq üçün hazırlayan hər kəs xalqın arasından qovulsun».

# Çıxış 31

### Hüzur çadırı üçün ustalar

### (Çıx. 35:30-36:1)

1 Rəbb Musaya dedi: 2 «Bax Yəhuda qəbiləsindən Xur oğlu Uri oğlu Besaleli adı ilə
çağırıb, 3 onu Allahın Ruhu ilə hikmət, dərrakə, bilik və hər cür məharətlə doldurmuşam
ki, 4 qızıl, gümüş və tuncla işləməyi bacarsın, 5 daş-qaş yonsun, ağac oysun, hər cür
məharət göstərə bilsin. 6 Mən də Dan qəbiləsində olan Axisamak oğlu Oholiavı ona
köməkçi təyin etmişəm. Hər müdrik adamın ürəyinə hikmət qoymuşam ki, Mən sənə
necə əmr etmişəm, belə də etsinlər: 7 Hüzur çadırını, Şəhadət sandığını və üstündəki
kəffarə qapağını, çadırın bütün avadanlığını, 8 masanı və onun ləvazimatını, xalis qızıldan
çıraqdanı və onun bütün əşyalarını, buxur qurbangahını, 9 yandırma qurbanları üçün
qurulan qurbangahı və onun bütün avadanlığını, ləyəni və onun altlığını, 10 toxunmuş
geyimləri – kahin Harunun müqəddəs geyimlərini və oğullarının kahinlik etmək üçün
geyimlərini, 11 məsh yağını, Müqəddəs yer üçün ətirli buxuru Mən sənə necə əmr
etmişəmsə, qoy o cür də düzəltsinlər».

### Şənbə istirahət günü

12 Rəbb Musaya dedi: 13 «Sən İsrail övladlarına belə söylə: "Mənim Şənbə günlərimə
riayət edin. Çünki bu Mənimlə sizin aranızda nəsildən-nəslə onu bilmək üçün bir
əlamətdir ki, sizi təqdis edən Rəbb Mənəm. 14 Beləliklə, Şənbə gününə riayət edin, çünki
o sizin üçün müqəddəsdir. Onu ləkələyən öldürülməlidir. O gün iş görən hər kəs xalqı
arasından qovulsun. 15 Altı gün iş görülsün, yeddinci gün isə Rəbb üçün təqdis olunan
Şənbə istirahət günü olsun. O gün iş görən hər kəs öldürülməlidir. 16 İsrail övladları
nəsildən-nəslə əbədi əhd kimi Şənbə gününə riayət və əməl etsinlər. 17 Mənimlə İsrail
övladları arasında əbədi bir əlamətdir ki, altı gün ərzində Rəbb göyləri və yeri yaratdı,
yeddinci gün isə istirahət etdi və dincəldi"». 18 Sina dağında Allahın Musa ilə söhbəti
qurtarandan sonra Allah Öz barmağı ilə yazılmış iki şəhadət daş lövhəsini Musaya verdi.

# Çıxış 32

### Qızıl dana

### (Qanun. 9:6-29)

1 Xalq Musanın dağdan enmədiyini, gecikdiyini görəndə Harunun ətrafına toplaşıb ona
dedi: «Qalx və bizim üçün allahlar düzəlt ki, qabağımızca getsinlər. Çünki bizi Misir
torpağından çıxaran adamın – bu Musanın başına nə iş gəldiyini bilmirik!» 2 Harun
onlara cavab verdi: «Arvadlarınızın, oğullarınızın, qızlarınızın qulaqlarından qızıl
sırğaları çıxarıb mənim yanıma gətirin». 3 Bütün xalq qulaqlarında olan qızıl sırğaları
çıxarıb Haruna gətirdi. 4 Harun onlardan qızıl götürdü, oyma aləti ilə surət verib dana
şəklində tökmə büt düzəltdi. Xalq «Ey İsrail övladları, budur sizi Misir torpağından

çıxaran allahlarınız!» dedi. [5]Harun bunu gördükdə dananın qabağında bir qurbangah
düzəltdi və elan etdi: «Sabah Rəbb naminə bayram olacaq». [6] Ertəsi gün xalq səhər
tezdən qalxıb yandırma qurbanları ilə ünsiyyət qurbanları kəsdi. Xalq oturub yeyib-içdi,
sonra isə qalxıb oynaşdı. [7]Rəbb Musaya dedi: «Tez ol, düş aşağı, çünki Misirdən
gətirdiyin xalqın öz əxlaqını pozdu və [8]Mən onlara əmr etdiyim yoldan yaman tez
döndü. Özləri üçün tökmə dana düzəldib ona səcdə qıldılar, qurban kəsdilər və dedilər:
"Ey İsrail övladları, budur sizi Misir torpağından çıxaran allahlarınız!"» [9]Rəbb Musaya
sözünü davam etdi: «Görürəm ki, bu xalq dikbaş xalqdır. [10]Qoy Mən xalqa qarşı
qəzəblənib onu yox edim, səndən isə böyük millət əmələ gətirim». [11] Musa Allahı Rəbbə
yalvarıb dedi: «Ya Rəbb, nə üçün Öz xalqına qarşı qəzəbin alovlansın? Sən onları
Misirdən böyük qüvvətinlə və qüdrətli əlinlə qurtarmadınmı? [12]Axı nə üçün Misirlilər
"Onları pis niyyətlə, dağlarda öldürüb yer üzündən yox etmək üçün çıxartdı" desinlər?
Yalvarıram, qəzəbini yatır və Öz xalqına bəla gətirmək niyyətindən dön. [13] Qulların
İbrahimi, İshaqı, və İsraili xatırla və Özün naminə onlara and edərək "nəslinizi göydəki
ulduzlar qədər çoxaldacağam, vəd etdiyim bu ölkənin hamısını nəslinizə verəcəyəm və
onlar əbədilik oraya sahib olacaqlar" dedin». [14]Beləliklə, Rəbb Öz xalqına bəla gətirmək
niyyətindən döndü. [15]Musa əlində iki şəhadət lövhəsi ilə dönüb dağdan endi. Lövhələrin
iki tərəfi – bu üzü də, o üzü də yazılı idi. [16]Onlar Allahın işi idi; üzərindəki oyma yazılar
Onun yazısı idi. [17]Yeşua xalqın səs-küyünü eşidərək Musaya dedi: «Düşərgədən
müharibə səsi gəlir». [18]Musa cavab verdi: «Bu qələbə çalanların nidası deyil,

Məğlubiyyətə uğrayanların da səsi deyil.

Mən nəğmə səsi eşidirəm».

[19]Musa düşərgəyə yaxınlaşıb dananı və onun ətrafındakı rəqsləri gördü. O qəzəbləndi və
lövhələri əlindən atıb dağın ətəyində parça-parça etdi. [20]Xalqın düzəltdiyi dananı götürüb
yandırdı, toza dönənə qədər əzdi və suyun üzünə səpələyib İsrail övladlarına içirtdi.
[21]Musa Harundan soruşdu: «Bu xalq sənə nə etdi ki, onları belə böyük günaha batırdın?»
[22]Harun cavab verdi: «Qoy ağam qəzəblənməsin. Sən bu xalqı tanıyırsan. Onun niyyəti
pisdir. [23] Onlar mənə dedilər: "Bizim üçün allahlar düzəlt ki, qabağımızda getsinlər.
Çünki bizi Misir torpağından çıxaran adamın – bu Musanın başına nə iş gəldiyini
bilmirik!" [24]Mən isə onlara dedim: "Kimdə qızıl varsa, onu çıxarın". Xalq da qızılı mənə
verdi. Mən onu oda atdım və bu dana alındı». [25]Musa bildi ki, xalq nəzarətdən çıxıb.
Harun nəzarəti o qədər zəiflətmişdi ki, düşmənlər onları lağa qoyurdular. [26]Musa
düşərgənin girişində durub çağırdı: «Rəbbin tərəfində olanlar, mənim yanıma gəlin!»
Bütün Levi övladları onun yanına toplaşdı. [27]Musa onlara dedi: «İsrailin Allahı Rəbb
belə deyir: "Qoy hər biriniz qılıncını belinə qurşasın. Hər kəs düşərgədə qapı-qapı
gəzərək öz qardaşını, dostunu və qonşusunu öldürsün"». [28]Levililər də Musa onlara
etdiyi əmrə əməl etdilər. O gün üç minə yaxın adam həlak oldu. [29]Musa Levililərə dedi:
«Bu gün sizin hər biriniz oğlunun və qardaşının canı bahasına xeyir-dua alıb Rəbb üçün
vəzifəyə təyin olundunuz». [30]Ertəsi gün Musa xalqa dedi: «Siz böyük günaha batdınız.
İndi isə Mən Rəbbin hüzuruna qalxacağam ki, bəlkə günahınızı kəffarə edə bilim».
[31]Musa Rəbbin hüzuruna qayıdıb dedi: «Ah, bu xalq böyük günaha batıb, özünə qızıldan
allahlar düzəltdi; [32] İndi yalvarıram, onların günahlarını bağışla. Əgər belə etməsən,
adımı yazdığın kitabdan sil». [33]Rəbb Musaya dedi: «Mənə qarşı kim günah işlədibsə,

onun adını kitabımdan siləcəyəm. [34]Lakin indi get, xalqı sənə dediyim yerə apar. Budur,
Mələyim sənin qarşında gedəcək. Ancaq cəza günü gələndə onlara günahlarına görə cəza
verəcəyəm». [35]Rəbb Harunun düzəltdiyi danaya və gördükləri işə görə İsrail xalqını
bəlaya saldı.

# Çıxış 33

### Sinadan ayrılmağa hazırlıq

[1]Rəbb Musaya dedi: «Sən və Misir torpağından çıxardığın xalq bu yeri tərk edin;
İbrahimə, İshaqa və Yaquba and edərək "Sənin nəslinə onu verəcəyəm" dediyim torpağa,
[2]qarşında bir mələk göndərib Kənanlıları, Emorluları, Xetliləri, Perizliləri, Xivliləri və
Yevusluları oradan qovacağım [3]süd və bal axan torpağa gedin. Siz dikbaş xalqsınız, buna
görə Mən aranızda getməyəcəyəm, yoxsa yolda sizi məhv edərəm». [4]Xalq bu bəd xəbəri
eşidəndə yas tutdu. Heç kəs bəzək taxmadı. [5]Rəbb Musaya demişdi: «İsrail övladlarına
belə söylə: "Siz dikbaş xalqsınız, Mən aranızdan bir anlıq getsəydim, sizi məhv edərdim.
İndi isə bəzəklərinizi çıxarın, Mən də bilim ki, sizinlə nə edəcəyəm"». [6]Beləcə Xorev
dağının ətəyində İsrail övladları bəzəklərini soyundular.

### Musanın Hüzur çadırı

[7]Musa çadırı götürüb onu düşərgədən kənarda – uzaqda qurardı. Onu Hüzur çadırı
adlandırdı. Rəblə məsləhətləşən hər kəs düşərgədən kənardakı Hüzur çadırına gedərdi.
[8]Musa çadıra tərəf çıxdığı vaxt bütün xalq durardı. Hər kəs çadırının girişində gözləyib,
Musa çadıra girənə qədər ardınca baxardı. [9]Musa Hüzur çadırına girəndə bulud dirəyi
düşüb çadırın girişində durardı; Rəbb Musa ilə danışardı. [10]Bütün xalq Hüzur çadırının
girişində duran bulud dirəyini görər, hamı qalxıb öz çadırının girişində səcdə qılardı.
[11]Rəbb Musa ilə üz-üzə, dostu ilə söhbət etdiyi kimi danışardı. Sonra Musa düşərgəyə
qayıdardı. Lakin onun gənc köməkçisi Nun oğlu Yeşua çadırı tərk etməzdi. [12]Musa
Rəbbə dedi: «Bax Sən mənə "bu xalqı çıxart" deyirsən, amma mənimlə birgə kimi
göndərəcəyini mənə bildirmirsən. Halbuki Sən dedin: "Səni adınla tanıyıram və gözümdə
lütf tapmısan". [13]Əgər mən, doğrudan da, Sənin gözündə lütf tapmışamsa, yalvarıram, öz
yolunu mənə agah elə ki, Səni tanıyım və gözündə lütf tapım. Bax bu camaat sənin
xalqındır». [14]O isə Musaya cavab verdi: «Mənim hüzurum səninlə gedəcək. Özüm sənə
rahatlıq verəcəyəm». [15]Musa Rəbbə cavab verdi: «Əgər Sənin hüzurun bizimlə getməsə,
bizi buradan göndərmə. [16]Xalqımın mənimlə birlikdə Sənin gözündə lütf tapması indi nə
ilə bilinəcək? Sənin bizimlə getməyindən deyilmi? Biz yer üzündə olan digər xalqlardan
nə ilə fərqlənək?» [17]Rəbb Musaya cavab verdi: «Sən Məndən dilədiyin bu şeyi
edəcəyəm. Çünki gözümdə lütf tapdın və səni adınla tanıyıram». [18]Musa dedi: «İzzətini
mənə göstər». [19] Rəbb dedi: «Mən bütün xeyirxahlığımı Sənin qarşından keçirəcəyəm və
Rəbb olan adımı qarşında bəyan edəcəyəm. Kimə istəsəm, lütf göstərərəm, kimə istəsəm,
rəhm edərəm». [20]Sonra O davam etdi: «Üzümü isə görə bilməzsən, çünki Məni görən
adam sağ qalmaz». [21]Sonra Rəbb dedi: «Budur, Mənim yanımda yer var, elə burada, bu
qayanın üstündə dur. [22]İzzətim keçəndə səni qayadakı bir yarığa qoyacağam; Mən
keçənə qədər səni əlimlə örtəcəyəm. [23]Sonra əlimi səndən çəkəcəyəm və sən Məni
arxadan görəcəksən, amma üzümü görməyəcəksən».

# Çıxış 34

**Yeni daş lövhələri**

**(Qanun. 10:1-5)**

1Rəbb Musaya dedi: «Əvvəlki kimi özün üçün iki daş lövhə yon; qırdığın əvvəlki
lövhələrdə yazılan sözləri yeni lövhələrin üstündə yazacağam. 2Səhərə hazır ol və Sina
dağına çıx. Dağın zirvəsi üstündə önümdə dur. 3Qoy heç kəs səninlə çıxmasın və dağda
heç bir adam görünməsin. Dağın ətəyində nə qoyun-keçi, nə də mal-qara otlasın». 4Rəbb
ona buyurduğu kimi Musa əvvəlkilərə bənzər iki daş lövhə yondu və səhər erkən durub,
əlində iki daş lövhə tutaraq Sina dağına çıxdı. 5Rəbb buludun içindən enib orada Musa
ilə durdu və Rəbb olan Öz adını bəyan edib 6 Musanın qarşısından keçərək dedi: «Rəbb
Mənəm, rəhmli və lütfkar Rəbb Allaham. Mən hədsiz səbirli, bol məhəbbətli və
sədaqətliyəm, 7minlərlə nəslinə məhəbbətimi göstərərəm, cəzanı, qanunsuzluğu və
günahı bağışlayaram; lakin cəzasız qoymaram, ataların cəzasını üçüncü-dördüncü nəslə
qədər nəvə-nəticələrinə verərəm». 8Musa dərhal yerə sərilib Rəbbə səcdə qıldı. 9Sonra
Musa dedi: «Ey Xudavənd, əgər gözündə lütf tapmışamsa, yalvarıram, Sən, ey
Xudavənd, aramızda ol. Biz dikbaş bir xalq olsaq da, təqsirimizlə günahımızı bağışla və
bizə sahib ol».

**Əhdin təzələnməsi**

**(Çıx. 23:14-19; Qanun. 7:1-5; 16:1-7)**

10Rəbb Musaya dedi: «Budur, Mən sənin bütün xalqınla əhd kəsirəm. Hamının
qarşısında elə möcüzələr edəcəyəm ki, beləsi dünyada heç yerdə, heç bir millət arasında
yaranmamışdı. Sizin ətrafınızdakı bütün xalqlar görəcəklər ki, Rəbbin işi, Mənim sənin
üçün etdiyim şeylər qorxuncdur. 11Mənim sizə bu gün verdiyim əmrə riayət edin. Budur,
Mən önünüzdən Emorluları, Kənanlıları, Xetliləri, Perizliləri, Xivliləri və Yevusluları
qovuram. 12Özünüzü girdiyiniz torpağın sakinləri ilə əhd kəsməkdən gözləyin ki, o sizə
bir tələ olmasın. 13 Onların qurbangahlarını dağıdın, daş sütunlarını sındırın, ilahə Aşera
bütlərini kəsin. 14Başqa allahlara səcdə etməyin, çünki Rəbbin adı qısqancdır, O,
həqiqətən, qısqanc Allahdır. 15Ona görə də nə o torpağın sakinləri ilə əhd kəsin, nə də öz
allahları ilə xəyanət edib, onlara qurban kəsən vaxt sizi də dəvət edəndə qurbanlarından
dadın. 16Onların qızlarını öz oğullarınıza arvad olaraq almayın ki, onlar öz allahları ilə
xəyanət edib sizin oğullarınıza da o allahlara xəyanət etdirməsinlər. 17 Özünüz üçün
tökmə allahlar düzəltməyin. 18 Mayasız Çörək bayramını qeyd edin. Mən sizə əmr
etdiyim kimi Aviv ayında təyin olunan vaxtı yeddi gün mayasız çörək yeyin, çünki Aviv
ayında Misirdən çıxdınız. 19 Bütün ilk doğulan oğlanlar və bütün heyvanlarınızın, istər
mal-qaranızın, istərsə də qoyun-keçinizin ilk doğulan balaları Mənimdir. 20 İlk doğulan
eşşək balası əvəzinə bir qoyun-keçi balası verin. Əgər əvəzini verməsəniz, boynunu
sındırın. Aranızda hər adamın ilk oğlunun əvəzini ödəyin. Heç kəs önümdə əliboş
görünməsin. 21 Altı gün işlərinizi görün, yeddinci gün isə istirahət edin. Şum və biçin
vaxtı da belə istirahət edin. 22 Buğda biçinin nübarı ilə Həftələr bayramını qeyd edin. İlin
sonunda isə Yığım bayramını qeyd edin. 23İldə üç dəfə sizin bütün kişiləriniz Sahibləri

İsrailin Allahı Rəbbin hüzuruna gəlsinlər. [24]Çünki Mən sizin qarşınızdan millətləri qovub
sərhədlərinizi elə genişləndirəcəyəm ki, siz ildə üç dəfə öz Allahınız Rəbbin hüzurunda
görünmək üçün gələndə heç kəs sizin torpağınıza tamah salmasın. [25] Mənə gətirilən
qurbanın qanını mayalı çörəklə təqdim etməyin. Pasxa bayramının qurban əti səhərə
qədər qalmasın. [26] Torpağın nübarının ilk hissəsini Allahınız Rəbbin məbədinə gətirin.
Oğlağı anasının südündə bişirməyin». [27]Rəbb Musaya dedi: «Bu sözləri yaz, çünki bu
sözlərə görə Mən səninlə və bütün İsraillə əhd kəsirəm». [28]Beləliklə, Musa Rəblə qırx
gün-qırx gecə qaldı. Bu müddət ərzində Musa heç nə yemədi, heç nə içmədi. O,
lövhələrin üstündə əhdin sözlərini, On əmri yazdı.

**Musanın üzü nur saçır**

[29] Musa əlində iki şəhadət lövhəsi tutub Sina dağından enəndə bilmirdi ki, Rəblə
danışdığına görə üzü nur saçır. [30]Harun və bütün İsrail övladları Musanın üzünü nur
saçan gördülər və ona yaxınlaşmaqdan qorxdular. [31]Musa onları çağıranda Harunla bütün
icma başçıları ona yaxınlaşdı və Musa onlarla söhbət etdi. [32]Sonra bütün İsrail övladları
ona yaxınlaşdı. Musa Rəbbin Sina dağında ona nəql etdiyi bütün işləri onlara əmr etdi.
[33]Musa söhbəti bitirəndə üzünə bir niqab çəkdi. [34]Musa Rəbbin hüzuruna Onunla
danışmaq üçün gedəndə niqabı çıxarar və çıxanadək niqabsız olardı. Çıxanda ona nə əmr
olunduğunu İsrail övladlarına nəql edirdi. [35]İsrail övladları isə Musanın üzünün nur
saçdığını görərdilər. Sonra Musa içəri girib Rəblə danışana qədər yenə də niqabı üzünə
çəkərdi.

# Çıxış 35

**Şənbə günü üçün qanun**

[1]Musa İsrail övladlarının bütün icmasını toplayıb onlara dedi: «Rəbb sizə bu şeylərə əməl
etməyi əmr etdi. [2] Altı gün işlərinizi görün, yeddinci gün isə sizin Rəbb üçün müqəddəs
Şənbəniz, istirahət gününüzdür. O gün iş görən hər kəs öldürülsün. [3]Şənbə günü
yaşadığınız heç bir yerdə od yandırmayın».

**Müqəddəs məskən üçün ianələr**

**(Çıx. 25:1-9)**

[4]Musa bütün İsrail övladlarının icmasına dedi: «Rəbbin əmr etdiyi iş budur: [5]öz
aranızdan Rəbbə bir ianə toplayın. Qoy könlü istəyən hər kəs Rəbbə belə ianə gətirsin:
qızıl, gümüş, tunc, [6]bənövşəyi, tünd qırmızı və al rəngli iplik, incə kətan, keçi yunu,
[7]qırmızı boyanmış qoç dəriləri, suiti dəriləri, əbrişim ağacı, [8]çıraq üçün zeytun yağı,
məsh yağı və ətirli buxur üçün ətriyyatlar, [9]efodla döşlüyün üstünə taxılan damarlı əqiq
və sağanaq daşları. [10]Aranızdakı ürəyi hikmətlə dolu hər adam gəlib Rəbbin əmr etdiyi
hər şeyi düzəltsin: [11]müqəddəs məskəni, onun çadırını, örtüyünü, bəndlərini,
çərçivələrini, şüvüllərini, dirəklərini və altlıqlarını; [12]sandığı və onun şüvüllərini; kəffarə
qapağını, arakəsmə pərdəsini; [13]masanı, onun şüvüllərini və bütün ləvazimatını; təqdis
çörəklərini; [14]işıq verən çıraqdanı, onun ləvazimatını, çıraqlarını və işıq yağını; [15]buxur

qurbangahını və şüvüllərini; məsh yağını, ətirli buxuru; məskənin girişi üçün arakəsməni;
[16]yandırma qurbanları üçün qurulan qurbangahı, onun üçün tunc şəbəkəni, şüvüllərini və
bütün avadanlığını; ləyəni və onun altlığını; [17]həyətin pərdələrini, dirəklərini və
altlıqlarını; həyətin darvazası üçün arakəsməni; [18]məskənin payalarını; həyətin
payalarını; onların iplərini; [19]müqəddəs yerdə xidmət üçün toxunmuş geyimləri: kahin
Harunun müqəddəs geyimlərini və oğullarının kahinlik etmək üçün geyimlərini». [20]İsrail
övladlarının bütün icması Musanın yanından çıxdı. [21]Ürəyinə toxunan və könlü istəyən
hər adam gəlib Hüzur çadırı, onun inşası və müqəddəs geyimlər üçün Rəbbə ianə gətirdi.
[22]Kişilər və qadınlar – könlü istəyənlərin hamısı bəzəkli sancaqlar, sırğalar, üzüklər,
bilərziklər kimi bütün qızıl əşyalarını gətirdilər. Hər kəs qızılı yellətmə təqdimi kimi
Rəbbə təqdim etdi. [23]Kimdə bənövşəyi, tünd qırmızı və al rəngli iplik, incə kətan, keçi
yunu, qırmızı boyanmış qoç dəriləri və suiti dəriləri var idisə, bunları təqdim etdi.
[24]Gümüş və tunc gətirən hər kəs də onu Rəbbə ianə olaraq təqdim etdi. Kimdə əbrişim
ağacı var idisə, onu bütün inşa işi üçün təqdim etdi. [25]Ürəyi hikmətlə dolu bütün qadınlar
öz əlləri ilə əyirdiyi bənövşəyi, tünd qırmızı və al rəngli iplik və incə kətan ipliyi təqdim
etdilər; [26]bu işi ürəkdən görmək istəyən bacarıqlı qadınlar keçi yunu əyirdilər. [27]Xalqın
başçıları bunları təqdim etdilər: efodla döşlüyün üstünə taxılan damarlı əqiq və sağanaq
daşlarını, [28]çıraq, məsh yağı, ətirli buxur üçün ətriyyatı və zeytun yağını. [29]İsrail
övladlarından hər qadın, hər kişi Rəbbin Musa vasitəsilə yerinə yetirmək üçün verdiyi
əmrə əsasən Rəbbə könüllü təqdimlər gətirdilər.

**Müqəddəs məskən üçün ustalar**

**(Çıx. 31:1-11)**

[30]Musa İsrail övladlarına dedi: «Baxın Rəbb Yəhuda qəbiləsindən Xur oğlu Uri oğlu
Besaleli adı ilə çağırıb [31]Allahın Ruhu ilə hikmət, dərrakə, bilik və hər cür məharətlə
doldurmuşdur ki, [32]o, qızılla, gümüşlə, tuncla işləməyi bacarsın, [33]daş-qaş yonsun, ağac
oysun, hər cür məharətlə bacarıq göstərə bilsin. [34]Rəbb onun və Dan qəbiləsindən olan
Axisamak oğlu Oholiavın ürəklərinə başqalarını öyrətmək bacarığını qoymuş,
[35]ürəklərini hikmətlə doldurmuşdur ki, oymaçılıq, naxışçılıq, bənövşəyi, tünd qırmızı və
al rəngli iplikdə və incə kətanda naxış tikməsi, toxuculuq – hər cür sənəti bacara bilsinlər.

# Çıxış 36

[1]Besalel, Oholiav və bütün ürəkləri hikmətlə dolu, Rəbbin onlara bu işi bacarmaq üçün
hikmət və dərrakə verdiyi adamlar Rəbbin etdiyi hər şeyə görə müqəddəs yerin inşa işini
görsünlər». [2]Musa Besaleli, Oholiavı və bütün ürəkləri hikmətlə dolu – Rəbbin onların
ürəklərinə hikmət qoyduğu adamları, bu işi ürəkdən görmək istəyənlərin hamısını çağırdı.
[3]Onlar müqəddəs yerin inşa işini görmək üçün İsrail övladlarının gətirdiyi bütün ianələri
Musanın yanından götürdülər. İsrail övladları hər səhər könüllü təqdimlər gətirməyə
davam edirdilər. [4]Onda müqəddəs yerin inşası ilə məşğul olan hikmətli sənətkarlar hər
işlərindən ayrılaraq [5]Musanın yanına gəlib dedilər: «Xalq Rəbbin əmr etdiyi inşa işi üçün
lazım olandan çox şey gətirir». [6]Musa əmr verdi və düşərgədə elan etdirdi ki, nə kişi, nə
də qadın müqəddəs yer üçün daha ianə gətirməsin. Beləcə xalq bir daha ianə gətirmədi.
[7]Çünki bütün işi görmək üçün xammal lazımi miqdardan artıq idi.

**Müqəddəs məskənin düzəldilməsi**

**(Çıx. 26:1-37)**

[8]İşi görmək üçün ürəkləri hikmətlə dolu bütün adamlar müqəddəs məskəni on pərdədən
düzəltdilər. Pərdələri nəfis toxunmuş incə kətandan bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdən, üstünü isə keruvlar şəklində naxışla düzəltdilər. [9]Hər pərdənin uzunluğu iyirmi
səkkiz qulac, eni isə dörd qulac idi. Bütün pərdələr eyni ölçüdə idi. [10]Pərdənin beşini də
bir-birinə birləşdirdilər. Digər beşini də bir-birinə birləşdirdilər. [11]Bir birləşmənin qıraq
pərdəsinin kənarında bənövşəyi ilgəklər düzəltdilər; o biri birləşmənin qıraq pərdəsinin
kənarında da eyni şəkildə ilgəklər düzəltdilər. [12]Bir pərdəyə əlli ilgək, o biri birləşmədəki
pərdənin kənarında da onlara uyğun gələn əlli ilgək düzəltdilər. [13]Qızıldan əlli bənd
düzəltdilər. Bəndlərlə pərdələri bərkitdilər və çadırı birləşdirdilər. Beləliklə, müqəddəs
məskən bütöv oldu. [14]Məskəni örtən çadır üçün keçi yunundan on bir ədəd pərdə
düzəltdilər. [15]Hər pərdənin uzunluğu otuz qulac, eni isə dörd qulac idi. On bir pərdə bir
ölçüdə idi. [16]Beş pərdəni ayrıca, altı pərdəni də ayrıca bitişdirdilər. [17]Bir birləşmənin
qıraq pərdəsinin kənarındakı kimi o biri birləşmənin qıraq pərdəsinin kənarında da əlli
ilgək düzəltdilər. [18]Çadırı birləşdirib bütöv etmək üçün tuncdan əlli bənd düzəltdilər.
[19]Çadır üçün qırmızı boyanmış qoç dərilərindən bir pərdə və onun üstündə suiti
dərilərindən bir pərdə düzəltdilər. [20]Müqəddəs məskən üçün əbrişim ağacından dik duran
çərçivələr düzəltdilər. [21]Hər çərçivənin uzunluğu on qulac, eni isə qulac yarım idi. [22]Hər
çərçivənin üstündə iki bir-birinə bağlanan zivana var idi; məskənin bütün çərçivələrini
belə düzəltdilər. [23]Məskənin cənub tərəfi üçün iyirmi çərçivə düzəltdilər. [24]Onların
altına qoyulmaq üçün hər çərçivənin altındakı iki zivana üçün iki altlıq düzəltdilər; beləcə
qırx gümüş altlıq düzəldildi. [25]Məskənin şimal tərəfi üçün də iyirmi çərçivə düzəltdilər.
[26]Hər çərçivənin altında iki altlıq olmaqla qırx gümüş altlıq düzəltdilər. [27]Məskənin
qərbə doğru arxası üçün altı çərçivə düzəltdilər. [28]Məskənin arxa küncləri üçün isə iki
çərçivə düzəltdilər; [29]bunlar aşağıda birləşib yuxarıda bir halqaya taxıldı; hər iki künc
üçün o cür iki çərçivə düzəltdilər. [30]Bu səkkiz çərçivə üçün on altı gümüş altlıq, hər
çərçivənin altında iki altlıq düzəldildi. [31]Əbrişim ağacından şüvüllər düzəltdilər:
məskənin hər iki tərəfdəki çərçivələri üçün beş şüvül, [32]məskənin qərbə doğru arxa
çərçivələri üçün də beş şüvül düzəldildi. [33]Çərçivələrin ortasında bir ucdan o biri uca
qədər uzanan orta şüvül düzəltdilər. [34]Çərçivələri qızılla örtdülər; şüvüllərin keçdiyi
halqaları qızıldan düzəltdilər; şüvülləri də qızılla örtdülər. [35]Pərdəni bənövşəyi, tünd
qırmızı, al rəngli iplikdən və nəfis toxunmuş incə kətandan, üstünü isə keruvlar şəklində
naxışla düzəltdilər. [36]Onun üçün əbrişim ağacından dörd dirək düzəltdilər və onları
qızılla örtdülər, üstündə qızıl qarmaqları qoydular; onlar üçün dörd gümüş altlıq tökdülər.
[37]Çadırın girişi üçün arakəsməni bənövşəyi, tünd qırmızı və al rəngli iplikdən və nəfis
toxunmuş incə kətandan naxış tikməsi ilə düzəltdilər. [38]Onun beş dirək və qarmaqlarını
da düzəltdilər. Yuxarılarını və bəndlərini qızılla örtdülər; beş altlığı isə tuncdan
düzəltdilər.

# Çıxış 37

**Əhd sandığının düzəldilməsi**

**(Çıx. 25:10-22)**

[1]Besalel əbrişim ağacından sandıq düzəltdi. Sandığın uzunluğu iki qulac yarım, eni qulac
yarım və hündürlüyü qulac yarım idi. [2]Onu içəridən və bayırdan xalis qızılla örtdü,
ətrafına isə qızıl zolaq qoydu. [3]Onun dörd ayağı üçün dörd tökmə qızıl halqa, iki halqanı
bir yanı qalan iki halqanı isə o biri yanı üçün düzəltdi. [4]Əbrişim ağacından şüvüllər
düzəldib üzərini qızılla örtdü. [5]Sandığı daşımaq üçün şüvülləri sandığın yanlarındakı
halqalara keçirtdi. [6]Xalis qızıldan kəffarə qapağını düzəltdi. Uzunluğu iki qulac yarım,
eni isə qulac yarım idi. [7]Kəffarə qapağının hər iki ucu üçün yastılanmış qızıldan iki
keruv düzəltdi. [8]Bir keruv qapağın bir ucunda, o birisi isə o biri ucunda olaraq qapağın
iki ucunda olan keruvlar onunla bir hissədən idi. [9]Keruvlar yuxarıya açılmış qanadları ilə
kəffarə qapağını örtdülər. Keruvların üzləri bir-birinə qarşı qapağa doğru idi.

**Təqdis çörəkləri üçün masanın düzəldilməsi**

**(Çıx. 25:23-30)**

[10]Əbrişim ağacından masa düzəltdi; uzunluğu iki qulac, eni bir qulac, hündürlüyü isə
qulac yarım idi. [11]Onu xalis qızılla örtdü. Ətrafına qızıl zolaq qoydu. [12]Ətrafında eni bir
ovuc olan yan lövhələr düzəltdi. Yan lövhələrin ətrafına da qızıl zolaq qoydu. [13]Masa
üçün dörd qızıl halqa tökdü, halqaları onun dörd küncünə, dörd ayağına bərkitdi.
[14]Halqalar yan lövhələrə yaxın olaraq masanı aparan şüvüllərin keçdiyi yerlər idi.
[15]Masanı aparmaq üçün şüvülləri əbrişim ağacından düzəltdi və onları qızılla örtdü.
[16]Masanın ləvazimatını – xalis qızıldan siniləri və nimçələri, içmə təqdimlərini tökmək
üçün dolçaları və piyalələri düzəltdi.

**Qızıl çıraqdanın düzəldilməsi**

**(Çıx. 25:31-40)**

[17]Xalis qızıldan çıraqdan düzəltdi. Bu çıraqdan yastılanmış qızıldan idi; altlığı, gövdəsi,
kasacıqları, qönçələri və gülləri onunla bir hissədən ibarət idi. [18]Çıraqdanın yanlarından
altı budaq – bir yanından üç budaq, o biri yanından da üç budaq çıxdı. [19]Hər bir
budağında badam çiçəyinə bənzər üç kasacıq, qönçə və gül var idi. [20]Çıraqdanın
gövdəsində isə badam çiçəyinə bənzər dörd kasacıq, qönçə və gül var idi. [21]Çıraqdanın
gövdəsindən çıxan altı budağın bir cütünün altında bir qönçə, o biri cütünün altında bir
qönçə, o birinin də altında bir qönçə var idi. [22]Qönçələr və budaqlar onunla bir hissədən
idi; hamısı eyni hissədən, yastılanmış xalis qızıldan idi. [23]Onun üçün yeddi çıraq
düzəltdi. Maşaları və xəkəndazları da xalis qızıldan idi. [24]Çıraqdanı və onun bütün
avadanlığını bir talant xalis qızıldan düzəltdi.

**Buxur yandırmaq üçün qurbangahın düzəldilməsi**

**(Çıx. 30:1-5; 30:22-38)**

[25]Əbrişim ağacından buxur yandırmaq üçün qurbangah düzəltdi; uzunluğu bir qulac, eni
də bir qulac, hündürlüyü isə iki qulac idi. Buynuzları onunla bir hissədən idi. [26]Onun
üzərini, hər yanını və buynuzlarını xalis qızılla örtdü, ətrafına qızıl zolaq qoydu. [27]Onun
üçün iki qızıl halqa düzəltdi; qarşı-qarşıya olan iki yanda, zolağın altında düzəltdi. Bu
onu aparan şüvüllərin keçdiyi yerlər idi. [28]Şüvülləri əbrişim ağacından düzəltdi və onları
qızılla örtdü. [29] Ətriyyatçının işi olan Müqəddəs məsh yağını və təmiz ətirli buxuru da
hazırladı.

# Çıxış 38

**Yandırma qurbanı üçün qurbangahın qurulması**

**(Çıx. 27:1-8)**

[1]Yandırma qurbanı üçün qurulan qurbangahı əbrişim ağacından düzəltdi. Dördbucaq
şəklində olub uzunluğu beş qulac, eni də beş qulac, hündürlüyü isə üç qulac idi.
[2]Qurbangahın dörd küncündə onunla bir hissədən olan dörd buynuz düzəltdi.
Qurbangahın üstünü tuncla örtdü. [3]Qurbangahın bütün avadanlığını – kül qablarını,
kürəkləri, ləyənləri, çəngəlləri və xəkəndazları – hər şeyi tuncdan düzəltdi. [4]Qurbangah
üçün kənarından aşağıya onun yarısına qədər yetişəcək torlu şəbəkəni tuncdan düzəltdi.
[5]Tunc şəbəkənin dörd bucağında şüvüllərin keçdiyi dörd halqanı tökdü. [6]Əbrişim
ağacından şüvüllər düzəldib üstünü tuncla örtdü. [7]Qurbangahı aparmaq üçün şüvülləri
onun hər iki yanındakı halqalara taxdı. Qurbangahın içi boş və taxtadan idi.

**Tunc ləyənin düzəldilməsi**

**(Çıx. 30:18)**

[8]Tunc ləyəni və onun tunc altlığını Hüzur çadırının girişində xidmət edən qadınların
güzgülərindən düzəltdi.

**Müqəddəs məskənin həyətinin düzəldilməsi**

**(Çıx. 27:9-19)**

[9]Müqəddəs məskənin həyətini düzəltdi. Həyətin cənub tərəfində uzunluğu yüz qulac olan
pərdələr nəfis toxunmuş incə kətandan idi. [10]Onların iyirmi dirəyi və iyirmi altlığı
tuncdan, dirəklərin qarmaqları və bəndləri isə gümüşdən idi. [11]Şimal tərəfində də
uzunluğu yüz qulac pərdə idi; onların iyirmi dirəyi və iyirmi altlığı tuncdan, dirəklərin
qarmaqları və bəndləri isə gümüşdən idi. [12]Qərb tərəfində uzunluğu əlli qulac pərdələr
idi. Onların on dirəyi və on altlığı var idi. Dirəklərin qarmaqları və bəndləri isə gümüşdən
idi. [13]Şərq tərəfində də həyətin eni əlli qulac idi. [14]Darvazanın bir tərəfində üç dirəyi və

üç altlığı olan uzunluğu on beş qulac pərdələr var idi. [15]Həyətin darvazasının o biri
tərəfində də üç dirəyi və üç altlığı olan uzunluğu on beş qulac pərdələr var idi. [16]Həyətin
bütün ətraf pərdələri nəfis toxunmuş incə kətandan, [17]dirəklərin altlıqları tuncdan,
dirəklərin qarmaqları və bəndləri gümüşdən, başlıqların örtüyü də gümüşdən idi; həyətin
bütün dirəkləri gümüşlə bəndləndi. [18]Həyətin darvazasının naxış tikməli arakəsməsi
bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və nəfis toxunmuş incə kətandan idi; uzunluğu
iyirmi qulac, hündürlüyü isə həyətin pərdələri kimi beş qulac idi. [19]Onun dörd dirəyi,
dörd tunc altlığı, gümüş qarmaqları, başlıqlarının gümüş örtüyü və bəndləri var idi.
[20]Məskənin və həyətin bütün ətraf payaları tuncdan idi.

### Hüzur çadırı üçün işlənən xammal

[21]Musanın əmri ilə kahin Harunun oğlu İtamarın başçılığı ilə Levililərin xidmət göstərib
apardığı məkanın – Şəhadət məskəninin hesabatı budur. [22]Yəhuda qəbiləsindən Xur oğlu
Uri oğlu Besalel Rəbbin Musaya əmr etdiyi hər şeyi düzəltdi. [23]Onunla çalışan Dan
qəbiləsindən olan Axisamak oğlu Oholiav oymaçılıq, naxışçılıq, bənövşəyi, tünd qırmızı
və al rəngli iplikdə və incə kətanda naxış tikməsi işini bacarırdı. [24]Müqəddəs yerin bütün
inşası üçün işlənən qızılın, ianə verilən qızılın ümumi çəkisi Müqəddəs yerdəki şekelə
görə iyirmi doqquz talant yeddi yüz otuz şekel idi. [25] Siyahıya alınan icmanın verdiyi
gümüşün çəkisi Müqəddəs yerdəki şekelə görə yüz talant və min yeddi yüz yetmiş beş
şekel idi. [26] Bu, sayılmış adamlara daxil olan hər kəs, iyirmi yaşında və ondan yuxarı
olan altı yüz üç min beş yüz əlli kişi üçün adambaşı bir beqa, yəni Müqəddəs yerdəki
şekelə görə yarım şekel idi. [27]Müqəddəs yerin altlıqlarını və pərdələrin altlıqlarını
tökmək işinə yüz talant gümüş yüz altlıq üçün yüz talant, yəni hər altlıq üçün bir talant
gümüş işləndi. [28]Min yeddi yüz yetmiş beş şekel gümüş isə dirəklər üçün qarmaqlar
düzəltmək, başlıqlarını örtmək və onları bəndləmək üçün işləndi. [29]İanə verilən tuncun
çəkisi yetmiş talant və iki min dörd yüz şekel idi. [30]Ondan Hüzur çadırı girişinin
altlıqları, tunc qurbangah, oradakı tunc şəbəkəni, qurbangahın bütün avadanlığı,
[31]həyətin ətraf altlıqları, həyətin darvazasının altlıqları, məskənin bütün payaları və
həyətin bütün ətraf payaları düzəldildi.

# Çıxış 39

### Kahinlərin geyimlərinin düzəldilməsi

**(Çıx. 28:1-14)**

[1]Rəbb Musaya əmr etdiyi kimi bənövşəyi, tünd qırmızı və al rəngli iplikdən Müqəddəs
yerdə xidmət üçün toxunmuş geyimlərini və Harunun müqəddəs geyimlərini hazırladılar.
[2]Efodu qızıldan, bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan hazırladılar. [3]Qızıl lövhələri döyüb onlardan saplar kəsdilər və onlarla
bənövşəyi, tünd qırmızı və al rəngli iplik və nəfis toxunmuş kətanın arasına naxışlar
tikdilər. [4]Hər iki ucunu bir-birinə bağlayan çiyinlik düzəltdilər ki, o bərkidilsin. [5]Efodun
üstündəki kəmər eyni hissədən idi. O da qızıldan, bənövşəyi, tünd qırmızı və al rəngli
iplik və nəfis toxunmuş incə kətandan idi. Rəbbin Musaya əmr etdiyi kimi oldu. [6]Hörmə
qızıl sağanaqlara salınıb üstündə möhür oyması kimi İsrailin oğullarının adları həkk

olunmuş damarlı əqiq daşlarını 7efodun çiyinliklərinə taxdılar. Bunlar İsrailin oğullarının
xatirə daşlarıdır. Rəbbin Musaya əmr etdiyi kimi oldu.

**Döşlüyün düzəldilməsi**

**(Çıx. 28:15-30)**

8Döşlüyü də efod kimi naxışlı qızıldan, bənövşəyi, tünd qırmızı, al rəngli iplikdən və
nəfis toxunmuş incə kətandan düzəltdilər. 9Döşlük ikiqat, dördbucaq şəklində olub
uzunluğu bir qarış, eni də bir qarış düzəldildi. 10Üstünə dörd sıra daş taxdılar. Birinci sıra
yaqut, topaz, zümrüd; 11ikinci sıra firuzə, göy yaqut və almaz; 12üçüncü sıra sirkon, əqiq
və ametist; 13dördüncü sıra sarı yaqut, damarlı əqiq və yəşəm daşı idi. Bu daşlar hörmə
qızıl sağanaqlara salındı. 14Daşlar İsrailin oğullarının adlarına görə on iki dənə idi; hər
daş on iki qəbilədən birinin adının oyma möhürü idi. 15Döşlük üçün xalis qızıldan
ipəbənzər burma zəncirlər qayırdılar. 16İki hörmə qızıl sağanaq və iki qızıl halqa
düzəltdilər. Halqaları döşlüyün iki ucuna taxdılar. 17İki qızıl ipi döşlüyün uclarındakı iki
halqaya taxdılar. 18İplərin o biri uclarını iki hörmə sağanağa taxıb efodun çiyinliklərinin
qabaq tərəfinə bağladılar. 19Yenə də iki qızıl halqa düzəldib onları döşlüyün iki ucuna,
onun efodla yanaşı iç qatına taxdılar. 20Digər iki qızıl halqa düzəltdilər və onu efodun
çiyinliklərinin qabaq tərəfinə, aşağıya, efodun kəməri ilə birləşmələrin üzərinə
bərkitdilər. 21Döşlüyü halqaları ilə efodun halqalarına bənövşəyi qaytanla bağlayıb
efodun kəmərinin üzərinə bərkitdilər ki, döşlük efoddan sallanmasın. Rəbbin Musaya əmr
etdiyi kimi oldu.

**Kahinlərin digər geyimlərinin düzəldilməsi**

**(Çıx. 28:31-43)**

22Efodun cübbəsini büsbütün toxunma bənövşəyi iplikdən tikdilər. 23Onun ortasında baş
keçirmək üçün yer tikdilər. Onun kənarında cırılmamaq üçün yaxa toxudular.
24Cübbənin ətəyinin ətrafına nəfis toxunmuş bənövşəyi, tünd qırmızı və al rəngli iplikdən
narlar düzdülər. 25Xalis qızıl zınqırovlar düzəldib, cübbənin ətəyi boyunca narların
arasına tikdilər. 26Beləcə xidmət cübbəsinin ətəyi boyunca ətrafında zınqırov və nar sıra
ilə düzüldü. Rəbbin Musaya əmr etdiyi kimi oldu. 27Harun və oğulları üçün toxunma
incə kətan xirqələri, 28nəfis toxunmuş incə kətandan çalma, incə kətan papaqları, əyirmə
incə kətan alt paltarı, 29nəfis toxunmuş incə kətan və bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdən naxış tikməli qurşağı tikdilər. Rəbbin Musaya əmr etdiyi kimi oldu. 30Xalis
qızıldan müqəddəslik tacı olan lövhəciyi düzəltdilər və onun üzərinə möhür oyması
olaraq «Rəbbə həsr edilmiş» yazısını yazdılar. 31Onu çalmanın üstünə qoymaq üçün
bənövşəyi qaytan tikdilər. Rəbbin Musaya əmr etdiyi kimi oldu.

**İşin tamamlanması**

**(Çıx. 35:10-19)**

[32]Beləliklə, müqəddəs məskən, yəni Hüzur çadırı üçün bütün işlər tamamlandı. Rəbb
Musaya necə əmr etmişdisə, İsrail övladları da bu işi eləcə tamamladılar. [33]Müqəddəs
məskəni Musanın qarşısına gətirdilər. Çadırını və onun avadanlığını, bəndlərini,
çərçivələrini, şüvüllərini, dirəklərini, altlıqlarını, [34]qırmızı boyanmış qoç dərilərindən
örtüyü, suiti dərilərdən düzəldilmiş örtüyü, arakəsmə pərdəsini, [35]Şəhadət sandığını və
onun şüvüllərini, kəffarə qapağını, [36]masanı və onun ləvazimatını; təqdis çörəklərini,
[37]xalis qızıldan çıraqdanı, onun düzülmüş çıraqlarını və işıq yağını, [38]qızıl qurbangahını,
məsh yağını, ətirli buxuru, çadırın giriş arakəsməsini, [39]tunc qurbangahını, onun üçün
tunc şəbəkəni, onun şüvüllərini və bütün avadanlığını, ləyəni və onun altlığını, [40]həyətin
pərdələrini, dirəklərini və altlıqlarını, həyətin darvazası üçün arakəsməni, onun iplərini və
payalarını – Hüzur çadırı və məskənin ibadəti üçün bütün əşyaları, [41]müqəddəs yerdə
xidmət üçün toxunmuş geyimləri – kahin Harunun müqəddəs geyimlərini və oğullarının
kahinlik etmək üçün geyimlərini – hər şeyi ona gətirdilər. [42]Rəbb Musaya necə əmr
etmişdisə, İsrail övladları da bu işi eləcə tamamladılar. [43]Musa bütün işləri nəzərdən
keçirib gördü ki, onlar bu işə Rəbbin əmr etdiyi kimi əməl ediblər. Musa onlara xeyir-dua
verdi.

# Çıxış 40

### Hüzur çadırının qurulması və təqdis olunması

[1]Rəbb Musaya dedi: [2]«Birinci ayın birinci günü müqəddəs məskəni, yəni Hüzur çadırını
qur. [3]Şəhadət sandığını oraya qoy və pərdə ilə qabağını kəs. [4]Sonra masanı gətir, üstünə
əşyaları düz. Çıraqdanı gətir, çıraqları da quraşdır. [5]Buxur üçün qızıl qurbangahı Şəhadət
sandığının qabağına qoy. Məskənin giriş arakəsməsini də qur. [6]Yandırma qurbanları
üçün qurulan qurbangahı məskənin – Hüzur çadırının girişinin qarşısında yerləşdir.
[7]Ləyəni Hüzur çadırı ilə qurbangahın arasına qoy, içinə su tök. [8]Ətrafında həyət qur və
həyətin darvazasının arakəsməsini as. [9]Sonra məsh yağını götürüb məskəni və içindəki
hər şeyi məsh et. Beləliklə, onu və bütün avadanlığını təqdis et ki, müqəddəs olsun.
[10]Yandırma qurbanlar üçün qurulan qurbangahı, onun avadanlığını məsh edib
qurbangahı təqdis et ki, o ən müqəddəs olsun. [11]Ləyənlə altlığını məsh edib təqdis et.
[12]Harunla oğullarını Hüzur çadırının girişinə gətirib onları su ilə yuyundur. [13]Haruna
müqəddəs geyimlər geyindir. Onu məsh edib təqdis et ki, Mənə kahinlik etsin. [14]Sonra
Harunun oğullarını təqdim et və onlara xirqələr geyindir. [15]Atalarını məsh etdiyin kimi
onları da məsh et ki, Mənə kahinlik etsinlər. Onlar nəsildən-nəslə əbədi kahinlik üçün
məsh olunacaqlar». [16]Rəbb Musaya necə əmr etmişdisə, o da bu cür etdi. [17]İsrail
övladlarının Misirdən çıxdığı vaxtın ikinci ilində, birinci ayın birinci günündə məskən
quruldu. [18]Musa çadırı qurdu: altlıqlarını qoydu, taxtalarını bərkitdi, şüvüllərini qurdu və
dirəklərini dikəltdi. [19]Məskənin üzərinə çadır saldı, onun üstünə də çadırın örtüyünü
qoydu. Rəbbin Musaya əmr etdiyi kimi oldu. [20]Bundan sonra o, şəhadət lövhələrini
götürüb sandığın içinə qoydu. Şüvülləri sandığa taxdı, kəffarə qapağını da sandığın
üstünə qoydu. [21]Sandığı məskənin içinə gətirdi və arakəsmə pərdəsini qurub Şəhadət
sandığının qabağını kəsdi. Rəbbin Musaya əmr etdiyi kimi oldu. [22]Masanı Hüzur
çadırının içində, şimal tərəfində, pərdənin bayır tərəfindən yerləşdirdi. [23]Onun üstünə
Rəbbin hüzurunda çörək düzdü. Rəbbin Musaya əmr etdiyi kimi oldu. [24]Çıraqdanı isə
Hüzur çadırının içində, masanın qarşısında, məskənin cənub tərəfində yerləşdirdi.

25Çıraqlarını da Rəbbin hüzurunda quraşdırdı. Rəbbin Musaya əmr etdiyi kimi oldu.
26Qızıl qurbangahı da Hüzur çadırının içində, pərdənin önündə yerləşdirdi; 27onun
üstündə ətirli buxur yandırdı. Rəbbin Musaya əmr etdiyi kimi oldu. 28Məskənin girişində
arakəsməni qurdu. 29Yandırma qurbanları üçün qurulan qurbangahı məskənin, Hüzur
çadırının girişində yerləşdirdi; onun üstündə yandırma qurbanını və taxıl təqdimini
gətirdi. Rəbbin Musaya əmr etdiyi kimi oldu. 30Ləyəni Hüzur çadırı ilə qurbangah
arasında yerləşdirib içinə yuyunmaq üçün su tökdü. 31Musa, Harun və oğulları orada əl-
ayaqlarını yuyardılar. 32Onlar Hüzur çadırına girdikləri və qurbangaha yaxınlaşdıqları
zaman yuyunardılar. Rəbbin Musaya əmr etdiyi kimi oldu. 33Məskənlə qurbangahın
ətrafında həyəti qurdu və həyət darvazasının arakəsməsini asdı. Beləliklə, Musa işləri
bitirdi.

**Rəbbin izzəti**

**(Say. 9:15-23)**

34 O vaxt bulud Hüzur çadırını bürüdü və Rəbbin izzəti məskəni doldurdu. 35Musa
Hüzur çadırına girə bilmədi, çünki bulud onun üstündə yerləşmişdi və Rəbbin izzəti
məskəni doldurmuşdu. 36 İsrail övladlarının bütün səfəri boyu bulud məskənin üstündən
qalxanda yola düşərdilər; 37bulud qalxmayanda isə, qalxdığı günə qədər yola
düşməzdilər. 38Səfərləri boyu bütün İsrail xalqının gözləri önündə gündüz Rəbbin buludu
məskənin üzərində, gecələr isə od buludun içində idi.